Günəş Şərqdən doğur!

№ 206 (5727), 2022-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 12 noyabr 2022-ci il (şənbə)

## Ukraynada müharibənin sonu yaxınlaşır

Kremlin yaratdığı işğal xəritəsi Kiyevin xeyrinə dəyişə bilər




**Rusiya qoşunlarının Dnepr çayının sol sahilinə köçürülməsi başa çatıb. Köçürülmə zamanı sağ sahildə bir dənə də olsun hərbi texnika və silah saxlanılmayıb.**

Rusiya qruplaşmasında şəxsi heyət, silah, texnika və material itkisi olmayıb. Xatırladaq ki, Xerson vilayətinin mərkəzi olan Xerson şəhəri Dnepr çayının sağ sahilində yerləşirdi. Rusiya qoşunlarının çayın sol sahilinə keçməsi Xerson şəhərinin də tərk edilməsi anlamına gəlir.

(Səh.5)



## Mesaj bəllidir

Bakının qəlbi Təbrizlə döyünür

**"Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Özbəkistanın Səmərqənd şəhərində keçirilən IX Zirvə Görüşündə çıxışı kifayət qədər diqqətçəkən məqamlar ilə yadda qaldı".**

Bu barədə "Şərq"ə açıqlamasında siyasi şərhçi Turan Rzayev deyib. Analitik bildirib ki, Zirvə Görüşündə diqqətçəkən məqamlardan biri türk dövlət başçılarının Qarabağa və Şərqi Zəngəzura dəvət edilməsi oldu: "44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərə vaxtaşırı diplomatik korpus nümayəndələrinin, hərbi attaşelərin, media mənsublarının, blogerlərin, həmçinin siyasi şəxslərin səfərləri təşkil edilir. Bütün bunlar ilə rəsmi Bakı həm də işğalçı və işğala məruz qalan arasındakı real fərqi göstərməyə çalışır.

(Səh.9)

# Qarabağ Zəfəri

## Nəticələr bölgə üçün yeni imkanlar yaradıb




Prezident İlham Əliyev: "Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq"

**"Azərbaycan-Özbəkistan əlaqələri daha yüksək səviyyəyə qalxıb". Bu barədə Prezident İlham Əliyev noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxışı zamanı bildirib.**

Dövlət başçısı TDT-nin Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Özbəkistan Prezidentinə minnətdarlığını bildirib.

(Səh.2)



## XİN cavab gözləyir

Fransa azərbaycanlıların Senata ünvanladığı petisiyaya reaksiya bildirməyib

Göründüyü kimi, ölkəmizə qarşı ədalətsizliyə etiraz olaraq bir qrup soydaşımız tərəfindən ictimai əsasda irəli sürülmüş bu təşəbbüs qısa müddət ərzində geniş dəstək toplayıb.

(Səh.2)

## İranın Azərbaycandakı səfiri XİN-ə çağırılıb

Rəsmi Bakının narazılığı Tehrana çatdırılıb



İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi noyabrın 11-də Xarici İşlər Nazirliyinə çağırılıb. Bu barədə "Şərq"ə XİN-dən məlumat verilib.

(Səh.7)

# Səbrin sonu uzaqda deyil

## Ermənistana bir neçə ay şans verə bilərik



**"Azərbaycan tərəfi bir az da səbrli olacaq, lakin səbrin sonu uzaqda deyil. Artıq iki ildir, səbrli davranırıq. Bir neçə ay da Ermənistanla diplomatik əlaqələrin baş tutması üçün şans verə bilərik.**

Ermənistan prosesləri maksimum uzatmağa çalışır. Proses ləngidikcə dünyadakı siyasi vəziyyət də dəyişə, yeni reallıqlar yarana bilər".

Bunu "Şərq"ə açıqlamasında hərbi-siyasi ekspert Haşim Səhrablı deyib.

Ekspert bildirib ki, hazırkı reallıqda Ermənistan sülh müqaviləsi imzalasa, Azərbaycanın qoyduğu şərtləri yerinə yetirməyə məcburdur...

(səh.9)



## Trampın kabusu

Respublikaçılar Partiyasının "qızıl oğlan"ı Ron DeSantis kimdir?

ABŞ-ın keçmiş prezidenti Donald Tramp Florida ştatının qubernatoru Ron DeSantisi tənqid edib. İki ən yaxşı respublikaçı arasında rəqabət ara seçkilərlə daha da güclənib.

(səh.10)



## Yaşa görə pensiya 450 manat olacaq

Nazir əhalinin yaşlanması probleminə diqqət çəkib

(səh.4)



## Atalıq məzuniyyətinin verilməsi mütləqdir

Bunun evin xanımına və doğulacaq uşağa faydası çox olacaq

(səh.12)

## Ermənilər yarışı yarımçıq tərk edib

Malik Həsənov erməni boksçu ilə döyüşmədən qalib elan olunub



**Polşanın Keltse şəhərində keçirilən beynəlxalq turnirdə növbəti dəfə Azərbaycan və Ermənistan boksçularının döyüşü baş tutmayacaq.**

Boks Federasiyasından apasport.az saytına verilən məlumata görə, buna ermənilərinin yarışı yarımçıq tərk etməsi səbəb olub.

(Səh.7)

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet
12 noyabr 2022-ci il (şənbə)





# Qarabağ Zəfəri

## Nəticələr bölgə üçün yeni imkanlar yaradıb

**"Azərbaycan-Özbəkistan əlaqələri daha yüksək səviyyəyə qalxıb". Bu barədə Prezident İlham Əliyev noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxışı zamanı bildirib. Dövlət başçısı TDT-nin Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Özbəkistan Prezidentinə minnətdarlığını bildirib. Ölkə rəhbəri deyib ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir:**

"Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq: "Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarımızı nəzərə alaraq, bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".

**"40 milyon azərbaycanlının əksəriyyəti öz ana dilində təhsil almaq imkanından məhrumdur"**

Ölkə başçısı qeyd edib ki, türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir: "Hesab edirəm ki, TDT üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğraması kimi məsələləri artıq təşkilat çərçivəsində daim əsas diqqətdə saxlamağın vaxtı gəlib çatıb. Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə, məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur".

**"Soydaşlarımızın tarixi vətənləri ilə əlaqələrinin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik"**

Prezident vurğulayıb ki, türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil alması daim təşkilatın gündəliyində olmalıdır, bu istiqamətdə lazımi addımlar atılmalıdır: "Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət verir. Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlaması, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi vətənləri ilə əlaqələrinin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik".




Prezident İlham Əliyev: "Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq"

**"İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir"**

Prezident bildirib ki, Azərbaycan xalqı Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasının 2-ci ildönümünü böyük qürur hissi ilə qeyd etdi: "2 il əvvəl biz Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyduq, tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik. Bununla Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özü icra etdi. 30 illik işğal bitsə də, onun ağır fəsadları hələ də qalmaqdadır. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerlə-yeksan edilib, qalan 2 məscid isə ciddi zərər görüb və donuz, inək saxlanılması üçün istifadə olunub. Bu, bütün müsəlman dünyasına təhqirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir".

Azərbaycan Prezidenti türk dövlətlərinin başçılarını Qarabağ və Şərqi Zəngəzura dəvət edib: "Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparır. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlamışıq". Dövlət başçısı bu prosesdə Türkiyə şirkətlərinin podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak etdiyini diqqətə çatdırıb: "Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşada, Füzulidə, Zəngilanda, Cəbrayılda olub. Mən digər türk dövlətlərinin başçılarını da Qarabağ və Şərqi Zəngəzura dəvət edirəm. Fürsətdən istifadə edərək işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikiləcək məktəbə və Qazaxıstan tərəfindən tikiləcək Yaradıcılıq Mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kazım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm. Bunlar Azərbaycan-özbək və Azərbaycan-qazax xalqları arasında olan qardaşlığın təzahürüdür".

**"Ermənistanın əsassız iddialarını qəti şəkildə rədd edirik"**

Dövlət başçısı vurğulayıb ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından iki il keçməsinə baxmayaraq, Ermənistan sərhəddə hərbi təxribatlarını davam etdirir: "Son olaraq sentyabr ayında Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-hücum əməliyyatına başlamağa məcbur oldu. Ermənistan dünya ictimai rəyini çaşdırmaq üçün əsassız olaraq Azərbaycanı hərbi təcavüzdə günahlandırmağa çalışır. Bu əsassız iddiaları qəti şəkildə rədd edirik. Biz öz torpaqlarımızda vuruşmuşuq və Ermənistan ordusunu məğlub edərək onları əzəli torpaqlarımızdan qovmuşuq". Prezident deyib ki, Praqa və Soçi bəyanatları bir daha göstərir ki, Qarabağ münaqişəsi tarixdə qaldı: "Oktyabr ayında Praqa və Soçidə qəbul edilmiş birgə bəyanatlarda Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı".

Prezident bildirib ki, Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq: "İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir".

**İsmayıl**



# Prezident İlham Əliyev Qurbanqulu Berdiməhəmmədovla görüşüb

## Energetika, nəqliyyat, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri müzakirə olunub

**Noyabrın 11-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.**

Görüşdə Qurbanqulu Berdiməhəmmədov Vətən müharibəsində Qələbənin ikinci ildönümü münasibətilə özünün və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun təbriklərini Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev öz növbəsində Qurbanqulu Berdiməhəmmədovu Türk Dünyasının Ali Ordeni ilə təltif olunması münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Türkmənistan və Azərbaycan bütün sahələrdə qardaşlıq, dostluq münasibətləri nümunəsi göstərir və bugünkü görüş də əlaqələrimizin inkişafına yaxşı təkan verəcək.

Görüşdə energetika, nəqliyyat, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu.

# XİN cavab gözləyir

## Fransa azərbaycanlıların Senata ünvanladığı petisiyaya reaksiya bildirməyib

**Göründüyü kimi, ölkəmizə qarşı ədalətsizliyə etiraz olaraq bir qrup soydaşımız tərəfindən ictimai əsasda irəli sürülmüş bu təşəbbüs qısa müddət ərzində geniş dəstək toplayıb.**

Bunu Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə yerli media nümayəndələrinin sualını cavablandırarkən deyib.

"Məlumata əsasən, yalnız Fransadakı azərbaycanlılar deyil, bir sıra digər xarici ölkələrdə yaşayan həmvətənlərimiz də bu təşəbbüsə öz imzaları ilə dəstək vermişlər. Bu addımlar, həmvətənlərimiz tərəfindən göstərilən həmrəyliyin və birliyin nümunəsidir. Təqdirəlayiq haldır ki, bu müraciət qeyd edilən portalda yerləşdirilən digər petisiyalarla müqayisədə əhəmiyyətli sayda çox dəstək əldə edib. Buna baxmayaraq, daha az səs toplayan və daha az əhəmiyyətə malik müraciətlər ilə müqayisədə azərbaycanlıların bu petisiyasına indiyə qədər Fransa tərəfindən reaksiya bildirilməyib. İctimai rəyə hər zaman həssaslıqla yanaşdığını iddia edən Fransa parlamentarilərinin soydaşlarımızın haqlı narazılıqlarına səbəb olan müraciətlərinə diqqət yetiriləcəyini gözləyirik", - XİN rəsmisi qeyd edib.

*Xatırladaq ki, Fransa Senatında 15 noyabr tarixində Azərbaycan əleyhinə qətnamə layihəsinə baxılması nəzərdə tutulur. Qətnamə layihəsi bir çox azərbaycanlıların hiddətinə səbəb olub və onun əleyhinə nüfuzlu Mesopinions.com petisiya saytında Fransa Senatına, hökumətinə və xalqına ünvanlanmış və qısa müddətdə 110 000-ə yaxın imza toplamış müraciət yerləşdirilib.*

# Mirzoyan Fransa XİN rəhbəri ilə Azərbaycanla normallaşma prosesini müzakirə edib

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Fransaya səfəri çərçivəsində həmkarı Katrin Kolonna ilə görüşüb.**

Mirzoyan Fransa XİN rəhbərinə Azərbaycanla normallaşma prosesi və sərhədlərin delimitasiyası barədə məlumat verib. Tərəflər oktyabrın 6-da Praqada keçirilmiş dördtərəfli görüşdən sonra verilən bəyanatın əhəmiyyətini vurğulayıblar. Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# Ərzaq qıtlığı təhdid edir

## Maliyyə naziri Samir Şərifov deyib ki, Azərbaycanda da yüksək inflyasiya var



## "Bu vəziyyət hər bir vətəndaşın gəlirlərini azaldan faktordur"

**"Xarici borclarımızı yenidən maliyyələşdirmə yolu ilə təmin edirik". Bunu Milli Məclisin bir neçə komitəsinin birgə iclasında maliyyə naziri Samir Şərifov deyib.**

2023-cu ilin dövlət büdcəsi ilə bağlı qanun layihəsinin komitələrdə müzakirəsi zamanı çıxış edən nazir bildirib ki, növbəti ildə beynəlxalq tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsait cari illə müqayisədə 22,8 faiz çoxdur. 2023-cü ildə keçirilməsi nəzərdə tutulan beynəlxalq səviyyəli tədbirlər üçün 207 milyon manat vəsait nəzərdə tutulub".

**"Prezident ordu quruculuğunu ən ümdə vəzifələr sırasına daxil edib"**

Samir Şərifov deyib ki ki, Ali Baş Komandan, Prezident İlham Əliyev ordu quruculuğunun daha da müasirləşdirilməsini ən ümdə vəzifələr sırasına daxil edib. Nazir bildirib ki, cari illə müqayisədə növbəti ilin büdcəsindən bu istiqamətə 6,6 faiz çox vəsait ayrılması nəzərdə tutulur: "2023-cü ildə Azərbaycan hökuməti 20 il və daha çox xidmət etmiş, işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması üçün 35 milyon manat vəsait ayıracaq".

**Azərbaycan ərzaq təhlükəsizliyi üçün vəsaiti 38,6 faiz artırır**

Maliyyə naziri bildirib ki, dünyada ərzaq qıtlığı, ərzaq böhranı kimi təhdidlər var: "Ərzaq təhlükəsizliyi məsələsi hazırda dünyada da çox aktualdır. Bu baxımdan ölkəmizin ərzaq təminatının təşkil olunması məsələsinə xüsusi önəm verilir. Ərzaq təminatı ilə bağlı xərclərin 52 faizi ərzaq təhlükəsizliyinə yönəldiləcək. Sahibkarlığın inkişafı dövlətin daim diqqət mərkəzində qalmaqdadır". Qeyd edək ki "2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsində ərzaq təhlükəsizliyi tədbirləri üçün 625,2 milyon manat vəsait proqnozlaşdırılıb. Bu da 2022-ci illə müqayisədə 38,6 faiz çoxdur.

**"Əməkhaqlarının artırılmasıyla elmdən nəsə gözləmək sadəlövhlük olardı"**

Nazir qeyd edib ki, elmə ayrılan xərclərin az olmasında səbəb buradakı struktur problemləridir. O bildirib ki, Elmin İnkişafı Fonduna ayrılan pulların xərclənməsi heç baş verməyib: "Prezident tərəfindən müvafiq qərar qəbul edilib. AMEA-nın bir hissəsi Elm və Təhsil Nazirliyinə verilib. Həmin nazirliyə təkliflərini hazırlamaq üçün 6 ay vaxt verilib. Mən əminəm ki, həmin təkliflər hazırlanandan sonra biz müvafiq qərarlar qəbul edəcəyik. Biz bunların dövlət büdcəsində əksini görəcəyik. Sadəcə, əməkhaqlarının artırılması yolu ilə mövcud strukturda elmdən nəyisə gözləmək sadəlövhlük olardı".

**"Qəsdən yaşadığı yerə zərər vururlar ki, yeni mənzil ala bilsinlər"**

S.Şərifov vurğulayıb ki, qarşıda Prezident tərəfindən müəyyən edilən, azad edilmiş ərazilərə "Böyük Qayıdış"ın təmin edilməsi çağırışı durur. Nazir bildirib ki, həmin ərazilərdə sərhədlərimizin yenidən təşkili, ictimai asayişin təmin edilməsi kimi böyük işlər də görülməlidir: "2021-2023-cü illər üçün bu istiqamətə böyük vəsaitlər ayrılır, bundan sonra da ayrılacaq. Sözsüz ki, sosial evlərin tikilməsi vacibdir, qəzalı vəziyyətdə yataqxanalarda yaşayan soydaşlarımıza yardım göstərməliyik. Lakin bəzən xoşagəlməz hallar yaşanır. Bəziləri yaşadığı yerə zərər vurur ki, yeni mənzil ala bilsin. Bu məsələlərə Bakı Şəhər İcra Hakimiyyətində baxılır".

**"Yüksək inflyasiya əhalinin alıcılıq qabiliyyətini zəiflədir"**

**Samir Şərifov bəyan edib ki, Azərbaycanda yüksək inflyasiya var:** "Təkcə Azərbaycan deyil, bütün dünya ölkələri inflyasiyadan əziyyət çəkir. İnflyasiya hər bir vətəndaşın gəlirlərini azaldan faktordur. Ona görə hökumət maraqlıdır ki, inflyasiya azalsın. Bizim gəlirlərimiz artsa da, istəyirik ki, inflyasiya azalsın. Yüksək inflyasiya əhalinin alıcılıq qabiliyyətini zəiflədir. Hazırda dünya bazarlarında neft-qaz satışı üzrə münbit şərait var. Amma bundan ölkəmizə gələn gəlirlər daha çox xərclərin qarşılanmasına yönəlir. Ona görə də biz xərclərə ehtiyatlı yanaşmalıyıq".

**"Taxıl bazarına qarşı getməyimiz təhlükəli hal olardı"**

Nazir diqqətə çatdırıb ki, taxılın qiyməti bu il olduqca yüksək olub: "Azərbaycanda bu, elə də hiss olunmayıb. Müharibə olan zamanı bu problemlər gündəmdə idi. Düzdür, qiymətlər artdı, amma dövlət tərəfindən taxılın qiyməti subsidiyalaşdırıldı. 2021-ci ildə sosial müavinətlərin, əməkhaqlarının artımı ilə bağlı qərarlar qəbul edildi. Prinsipcə, taxıl bazarına qarşı getməyimiz olduqca təhlükəli hal olardı. Prezident tərəfindən ölkəmizin idxal olunan taxıldan asılılığının azaldılması üçün müvafiq tapşırıqlar verilib. Bu işlərə başlanılıb. Cari ildə də müvafiq ehtiyatlar yaradılacaq. Artıq müvafiq qurum da formalaşdırılıb. Dövlət Ehtiyatları Agentliyində taxıl ehtiyatlarımızı formalaşdıracağıq. Eyni zamanda, digər ehtiyatlarımızı da formalaşdırmaq istiqamətində iş gedir. Ehtiyatların formalaşdırılması ehtiyatların yenilənməsi siyasəti ilə uyğunlaşdırılmalıdır. Xüsusilə ərzaqların istifadə müddəti var. Yəni Dövlət Ehtiyatları Agentliyi ərzaqları satmaqla, ondan gələn gəlirdən yeni ehtiyatları formalaşdırmalıdır".

**"Kinoya pul ayrılacaq, əsas onun necə istifadə olunmasıdır"**

Nazir qeyd edib ki, kino çəkilməsinə vəsait ayrılacaq. Xüsusilə Vətən müharibəsi dövrünə aid filmlərin çəkilməsi üçün artıq bu pul ayrılıb: "Bu vəsaitin necə istifadə olunacağı əsasdır". Nazir bildirib ki, Mədəniyyət Nazirliyi tərəfindən təşəbbüslər var, maraqlı formatlar təklif edilir: "Filmlərin Türkiyə vasitəsilə "Netflix" və digər platformalarda daha geniş yayımlanması təkliflər sırasında yer alıb. Biz aidiyyəti nazirliklə buna baxırıq".

**"Neftin qiymətinə mühafizəkar yanaşma bizi mənfi nəticələrdən sığortalayır"**

**Samir Şərifov bildirib ki, gələn ilin büdcəsinin 92,2 faizini gəlirlərimiz hesabına təmin edirik:** "Kəsir hissəsini isə digər gəlirlər hesabına təmin edəcəyik. Deyilir ki, neftin qiyməti yuxarıdır, ona görə də büdcədə neftin qiymətini yuxarı da götürmək olar. Bu, düzgün yanaşmadır. Lakin bunu da nəzərə almaq lazımdır ki, neftin qiyməti kəskin qalxanda da, kəskin enir. Bütün problemlər də bundan sonra başlayır. Bu da neft gəlirlərindən asılı olan ölkələrdə olur. Ona görə də neft faktorundan asılılığımızı azaldırıq. Neftin qiymətinin volatilliyi, ona mühafizəkar yanaşma neftin qiymətinin oynaması nəticəsində bizi mənfi nəticələrdən sığortalayır. Ona görə də bu siyasəti gələcəkdə də davam etdirəcəyik".

**İsmayıl Qocayev**



# TDT genişlənir

## Şimali Kipr Türk Cümhuriyyəti türk dünyasından təcrid oluna bilməzdi

**"Biz səylərimizi cəmləşdirməliyik. Şimali Kipr Türk Cümhuriyyətini təşkilatımıza müşahidəçi üzv qəbul etdik".**

Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Səmərqənddə Türk Dövlətləri Təşkilatının (TDT) IX Zirvə Görüşündə çıxışı zamanı bildirib.

Ərdoğan qeyd edib ki, kiprli qardaşlarımızın tək olmadığını göstərməklə həll prosesinə töhfə vermişik.

**Məsələyə münasibət bildirən politoloq İlqar Vəlizadə "Şərq"ə deyib ki, bu addım TDT-yə daxil olan ölkələrin Şimali Kiprin yanında olduğunu göstərir:** "Hazırda dünyanın geosiyasi xəritəsinin dəyişdirilməsi və yenidən müəyyən olunması heç kəsə sirr deyil. Bir çox regionda gedən bu proses türk məkanında da özünü göstərir. Gedişat isə deməyə imkan verir ki, Kipr daxilindəki dialoq demək olar dayanıb və burada Şimali Kiprin günahı yoxdur.

Çünki qarşı tərəfin qoyduğu tələblər reallıqdan uzaq görsənir. Belə halda da burada yaşayan insanlar, Şimali Kiprin cəmiyyəti, dünyadan və Türk birliyi ilə əməkdaşlıqdan təcrid oluna bilməz.

Bu addım həm də onu göstərir ki, TDT-yə daxil olan ölkələr Şimali Kiprin yanındadır. Digər tərəfdən hadisənin iqtisadi, humanitar nəticələri də olacaq. Ona görə ki, Şimali Kiprdə kifayət qədər ticarət prosesləri gedir. Bu əlaqələr əsasən Türkiyə ilə olsa da, digər qonşu ölkələrin investisiya sahiblərilə də möhkəmlənir.

Ona görə də bu addım Kiprdə yaşayan insanların və fəaliyyət göstərən sahibkarların xeyrinədir. Sözügedən məsələ həm də TDT-nin genişlənməkdə olduğunu göstərir".

**Nihat Müzəffər**



# Azərbaycan dəhliz prosesini yekunlaşdıracaq

## Heç bir güc, mərkəz, ölkə bu problemi uzada bilməz

**"Zəngəzur dəhlizinin hüquqi idarə edilməsi ilə bağlı beynəlxalq səviyyədə fikir ayrılıqları mövcuddur".**

**Bunu "Şərq"ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib.**

Ə.Əlibəylinin qənaətincə, Rusiya öz nəzarəti altında Zəngəzur dəhlizinin açılmasını istəyir. Amma Çinlə Böyük Britaniya bunun tərəfdarı deyil: "Qlobal güclər arasında fikir ayrılığı yaşandığı üçün Ermənistan rahat şəkildə faydalanmağa çalışır. Ermənistan 10 Noyabr razılaşmasında gah dəhliz məsələsi yoxdu deyir, gah da Zəngəzur. Bəzən də Ermənistanın ərazi vahidi kimi tanınmasını istəyir. Alternativ Laçın dəhlizindən də humanitar məqsədlərlə istifadə etmirlər.

Yekunda hərbi toqquşmaların yaşanması mümkündür. İran, hətta Hindistan faktoru da prosesə daxil oldu. Bir az da onlar Ermənistanın doğru siyasətini manipulyasiya etdi. İndi də Zəngəzur dəhlizinə paralel Hindistan, İran, Ermənistan nəqliyyat dəhlizinin çəkilməsinə çalışırlar. Prezident İlham Əliyev demək istəyir ki, heç bir güc, mərkəz, ölkə bu problemi uzada bilməz, Azərbaycan istəyini reallaşdıracaq".

*Qeyd edək ki, noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirilib. Prezidenti İlham Əliyev tədbirdə çıxış edib: "İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir. Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq"-, dövlət başçısı bildirib.*

**Aygün Tahir**

# TDT-nin hədəfləri genişdir

## Tofiq Zülfüqarov: "Türk millətindən olanların hüquqları təmin edilməlidir"



**"Türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil. Onun coğrafi sərhədləri daha genişdir. Hesab edirəm ki, TDT üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğraması kimi məsələləri artıq təşkilat çərçivəsində daim diqqətdə saxlamağın vaxtı gəlib çatıb. Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır".**

Bu sözləri Prezident İlham Əliyev Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxış edərkən deyib.

Ölkə başçısı qeyd edib: "Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur. Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil alması daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır. Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət verir. Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizin qoruyub-saxlanılması, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi vətənləri ilə əlaqələrinin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik".

**Mövzunu "Şərq"ə dəyərləndirən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, bu sözlərin ilk hədəfi İrandır:** "İranın əhalisinin əksəriyyəti türk əsilli azərbaycanlılardır. Ona görə də açıqlamalardakı ən böyük payı cənub qonşumuz üzərinə götürməlidir. Lakin digər ölkələrdə də buna aid problemlər mövcuddur.

Sözügedən məsələnin isə TDT-nin əsas məqsədlərindən biri olduğunu hesab edirəm.

Türk millətinə aid insanların, yaşadığı yerdən asılı olmayaraq hüquqları təmin edilməlidir. Öz dilində təhsil almaq hüququ da bu sırada ən vaciblərdən biridir".

**Nihat Müzəffər**



**Noyabrın 11-də Səmərqənd şəhərində "Ümumi evimiz olan Dünya üçün Sıfır Tullantı üzrə Qlobal öhdəliyə dair Bəyannamə" imzalanıb.**

# Sıfır Tullantı üzrə Qlobal öhdəliyə dair Bəyannamə imzalanıb

Türkiyə Respublikasının təşəbbüsü ilə hazırlanan Bəyannaməni Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Macarıstanın Baş nazirinin xanımı Aniko Levai imzalayıblar.

Bəyannamədə Paris Sazişindəki və Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyindəki hədəflərə nail olunması istiqamətində tükənən ehtiyatların səmərəli istifadəsinin təşviqi və təkrar istifadəsi, eləcə də tullantıların yaranmasının təkrar emal vasitəsilə azaldılması zərurəti qeyd edilir. Həmçinin tullantıların dayanıqlı idarə olunması ilə resursların səmərəliliyi və iqlim dəyişikliyi arasında güclü əlaqənin olduğu qəbul edilir. Bəyannamədə tullantıların dayanıqlı idarə olunması strategiyasının həyata keçirilməsinə sadiqlik ifadə olunur. Sənədə görə, dünyada sıfır tullantı yanaşmasının təbliğ olunacağı və qabaqcıl təcrübələrin paylaşılacağı vəd edilir. Bəyannamədə BMT-yə üzv dövlətlərə, vətəndaş cəmiyyətlərinə, özəl sektora və mediaya strategiya və yanaşmaları dairəvi iqtisadiyyata keçidin sürətləndirilməsinə, tullantıların iqlim dəyişikliyinə təsirinin azaldılmasına uyğunlaşdırmağa dair çağırış edilir.

*Qeyd edək ki, Bəyannaməni BMT-nin Baş katibi Antonio Quterreş də imzalayıb.*

# Yaşa görə pensiya 450 manat olacaq

## Nazir əhalinin yaşlanması probleminə diqqət çəkib

**"Gələn ildən bir ailə üçün ünvanlı sosial yardım 500 manatdan çox olacaq". Bunu Milli Məclisin müvafiq komitələrində gələn ilin büdcə müzakirələri zamanı Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. Nazir bildirib ki, gələn ildən yaşayış minimumu və ehtiyac meyarı 246 manat məbləğində müəyyən ediləcək. Bu rəqəm cari ildə 200 manatdır:**

"Ehtiyac meyarı və yaşayış minimumu ünvanlı sosial yardımın hesablanmasında istifadə olunan indikatorlardır. Bu artım növbəti ildə ünvanlı sosial yardım ödənişinin də 30 faiz artımına şərait yaradacaq və orta hesabla bir ailəyə düşən ünvanlı sosial yardım 500 manatın üzərində olacaq. Bu da həm cari ildə olan ümumi inflyasiyasının, həm ərzaq inflyasiyasının qarşısını almağa kömək edəcək".

**"Hərbçilərə icbari sığorta ödənişləri ƏƏSMN tərəfindən ödənilir"**

Sahil Babayev bildirib ki, cari ildən başlayaraq hərbçilərə və xüsusi rütbəli şəxslərə icbari sığorta ödənişləri də ƏƏSMN tərəfindən ödənilir. Nazir deyib ki, bu günə qədər bu ödənişlər keyfiyyətlə ödənilib: "Eyni zamanda, dövlət başçısının humanist addımı ilə I Qarabağ müharibəsində yaralanan, əlilliyi olan şəxslərə də birdəfəlik ödənişlər verilir. Bu, cari ildən icra olunur".

Nazir qeyd edib ki, Azərbaycan sosialyönümlü siyasəti ilə əhalinin rifah halının yüksəldilməsi üçün öz hədəflərini müəyyən edir və həyata keçirir: "Qısa müddət ərzində sosialyönümlü xərclərin 2 dəfə artması böyük nailiyyətdir. Ölkədə əməkhaqlarının artırılması sahəsində islahatlar davamlı nəticə göstərir. Əhaliyə ödənişlərin, xüsusilə pensiya ödənişlərinin 650 milyon manat artımı pensiyaçılarımız üçün çox önəmlidir. Həm yaşa görə, həm də ümumi pensiyaların 400 manatın üzərində olması planlaşdırılır. Yaşa görə pensiyanı 450 manat ətrafında, ümumi pensiyanı isə 400 manat planlaşdırırıq".



"2035-ci ilə qədər çətinlik yoxdur. 2035-2045-ci illərdə yaşlanma başlayır"

**"Tibbi qurumlar hazır olanda əlilliyin qiymətləndirilməsini yerlərdə edə biləcəyik"**

Nazir deyib ki, tibbi qurumlar hazır olanda əlilliyin qiymətləndirilməsini yerlərdə edə biləcəyik: "Gələcəkdə əlilliyin yerlərdə qiymətləndirilməsi tibbi qurumlarımızın hazırlıq səviyyəsindən asılıdır. Əyani görüşlərin, kompleks qiymətləndirmələrin yerlərdə aparılması üçün Səhiyyə Nazirliyi və TƏBİB-lə müzakirələr aparıblar. Xəstəxanalar, tibbi qurumlar hazır olanda biz əlilliyin qiymətləndirilməsini yerlərdə də edə biləcəyik".

**Nazir uşaq pulu məsələsinə münasibət bildirib**

**Sahil Babayev vurğulayıb ki, uşaq pulu ilə bağlı dəfələrlə açıqlama verilib:** "Bu gün də bildirirəm ki, Azərbaycanda 600 min həssas uşağa yardım edilir. Həmin həssas uşaqlar ünvanlı sosial yardım, əlilliyə görə vəsait alır və s. Bəli, həssas kateqoriyadan olan uşaqlara yardım edilməlidir və dövlətimiz o yardımı edir. Sosial yardım ünvanlı olmalıdır, nəinki ümumi".

**"İndeksasiyanı nəzərə alsaq, gələn il minimum pensiyada ciddi artımı gözləyirik"**

Nazir qeyd edib ki, minimum pensiya məbləği artıb: "Median əməkhaqqını son 4 ildə 2,3 dəfə artıra bilmişik. Artım dinamikamız çox güclüdür. Bu gün heç də əhalinin hamısı minimum pensiya almır, indeksasiya ilə də əlavələr alır. Minimum pensiyada da indeksasiyanı nəzərə alsaq, gələn il ciddi artım gözləyirik. Bizim apardığımız islahatların hər birində aşağı gəlirli əhaliyə üstünlük verilir. Ona görə minimum əməkhaqqını aqressiv artırdıq. Bu, davam edəcək". Nazir qeyd edib ki, pensiya yaşı 65 yaş təsdiq olunub: "Bu gün effektiv yaş kişilərdə 62, xanımlarda 61-dir. Bir sıra güzəştlər nəzərdə tutulub. Pandemiyadan əvvəl orta yaş xanımlarda 70 yaşdan yuxarı idi. Ona görə də burada bütün risklər düzgün qiymətləndirilməlidir".

**Azərbaycanda könüllü pensiya sistemi tətbiq olunacaq**

S.Babayev bildirib ki, inflyasiya ilə bağlı hökumətimiz tərəfindən daimi işlər həyata keçirilir: "2019-cu ildən bu yana 4 milyon insana 6 milyard manat şamil olunub. Gələn il bütün əlavə gəlirlər bizim 2-3 prioritet sahələrdən biri olan sosial sahələrə yönəldiləcək. Yeni təkmilləşmələr hazırlanır. Pensiya sisteminin ikinci mərhələsi ilə bağlı Avropa İttifaqı ilə birlikdə layihə hazırlanır. Bununla bağlı aidiyyəti qurumlarla da razılaşmalar aparılır. Lakin bir şeyi bilməliyik ki, könüllü pensiya sistemi icbari pensiya sistemini əvəz edə bilməz. Məcburi pensiya sistemi öz yerində qalacaq, könüllü pensiya sistemi də tətbiq olunacaq".

**"Median pensiyamız da yaxşıdır, 60 faizin üzərindədir"**

Nazir Azərbaycanda əhalinin yaşlanmasının pensiya sisteminə təsirini açıqlayıb. Bildirib ki, Azərbaycanın ən yaxşı göstəricisi minimumlardadır: "Son 3 ildəki 3 sosial islahat paketi ilə Prezident bütün resursları ən aşağı gəlirli insanlara yönəltdi. Median pensiyamız da yaxşıdır, 60 faizin üzərindədir. Bütün strateji sənədlərimizdə də bu prioritetlərin qorunması məsələsini hədəf kimi qarşımıza qoymuşuq". Nazir əhalinin yaşlanması probleminə diqqət çəkib: "Əhalinin yaşlanması ilə bağlı hesablamaları həm özümüz hazırlamışıq, həm də məşhur beynəlxalq akademikləri cəlb edərək 2050-ci ilə qədər hesablamışıq. Hesablamalara əsasən, 2035-ci ilə qədər çətinlik yoxdur. 2035-2045-ci illərdə yaşlanma başlayır. 2045-ci ildən sonra isə çağırış başlayır. Bu hesablamalar pensiya sisteminin dayanıqlığına təminat verir. Biz bu illər ərzində formal məşğulluğu təmin etməliyik. Ona görə bütün fokus formal məşğulluğun təmin edilməsinə yönəldilib".

**İsmayıl**

# Ukraynada müharibənin sonu yaxınlaşır

## Kremlin yaratdığı işğal xəritəsi Kiyevin xeyrinə dəyişə bilər

**Rusiya qoşunlarının Dnepr çayının sol sahilinə köçürülməsi başa çatıb. Köçürülmə zamanı sağ sahildə bir dənə də olsun hərbi texnika və silah saxlanılmayıb. Rusiya qruplaşmasında şəxsi heyət, silah, texnika və material itkisi olmayıb. Xatırladaq ki, Xerson vilayətinin mərkəzi olan Xerson şəhəri Dnepr çayının sağ sahilində yerləşirdi.**

Rusiya qoşunlarının çayın sol sahilinə keçməsi Xerson şəhərinin də tərk edilməsi anlamına gəlir. Rusiya silahlı qüvvələri Ukraynanın Xerson vilayətinin bir hissəsini tərk etdikdən sonra Ukrayna ordusu vilayətin eyniadlı mərkəzinə doğru irəliləyib. Həmçinin qeyd olunub ki, Xerson şəhərinin sakinləri Ukrayna hərbçilərini qarşılamaq üçün mərkəzi meydanlara toplaşıblar. Vilayət administrasiyasının binası üzərində Ukrayna bayrağı qaldırılıb.

ABŞ-ın Müharibəni Öyrənilməsi İnstitutu məlumat yayıb ki, cəbhədə təşəbbüs Ukrayna Silahlı Qüvvələrinin əlindədir: "Xersonda böyük qələbəni təmin etmək prosesi gedir. Atəşkəs Kremlə Rusiya qüvvələrini bərpa etmək üçün çox ehtiyac duyduğu fasiləni verəcək. Amma Xersonda davam edən böyük Ukrayna qələbəsi sonuncu olmayacaq. Son 24 saat ərzində Ukrayna ordusu Xersonun şimal-qərbində, qərbində və şimal-şərqində uğur qazanıb, bəzi ərazilərdə 7 km-ə qədər irəliləyib. Rus qoşunlarının geri çəkilməsi yaxın günlərdə və ya həftələrdə Dnepr çayına qədər olan Xerson bölgəsini azad etməyə imkan verəcək. Rusiya qoşunlarının çıxarılması bir qədər vaxt aparacaq və döyüşlər bütün Xerson vilayətində davam edəcək. Çünki Ukrayna ordusu Xerson şəhəri ətrafında əvvəlcədən hazırlanmış Rusiya müdafiə xətti ilə üz-üzədir".

ABŞ Prezidenti Co Bayden deyib ki, Rusiya qoşunları ölkə ərazisindən tam çıxarılmayana qədər Ukraynadakı münaqişənin həllinin mümkünlüyünü görmür: "Putin Ukraynanı tərk edənə qədər münaqişə həll olunmayacaq".

ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays isə bildirib ki, Vaşinqton Rusiyadan Ukraynada sülhün bərqərar olması üçün ciddi danışıqlara hazır olduğuna dair mesajlar gözləyir: "Biz Ukrayna tərəfinin danışıqlara hazır olduğunu görürük. Eyni zamanda, Rusiya rəhbərliyinin Ukraynada sülhə dair bəyanatlarını əməlləri ilə dəstəkləyəcəyini gözləyirik".

**Siyasi şərhçi Aqşin Kərimov vurğulayıb ki, ABŞ və Rusiya Ukrayna ilə bağlı sövdələşmə formulunu axtarır. Ekspertə görə, Ukrayna müharibəsində Rusiyanın yaratdığı işğal xəritəsi Kiyevin xeyrinə dəyişə bilər. Çünki Moskva Xerson vilayətindəki qoşunlarını Dneprin sağ sahilindən çıxarıb sol cinaha yerləşdirdi:** "Rusiyanın qərarı hərbi-taktiki baxımdan Ukrayna üçün böyük üstünlüklər vəd edir. Lakin Xerson uğrunda gözlənilən döyüşlər mahiyyət etibarı ilə ləğv edilmiş vəziyyətdə deyil. Rusiyanın planının hərbi ştrixləri bundan ibarətdir ki, o, Ukraynadakı müharibənin Xerson



## ABŞ və Rusiya Ukrayna ilə bağlı sövdələşmə formulunu axtarır

cəbhəsində ciddi uğursuzluğa düçar olacağını dərk edib və qüvvələrini Dneprin şərq tərəfinə yerləşdirməklə maksimal müdafiəni təmin etməyi qarşıya məqsəd qoyur. Rusiya bununla Ukraynanın həmin istiqamətdən gözlənilən hücumunu gecikdirməyə nail olmaq istəyir. Lakin proseslərin döyüş qoxulu mənzərəsi Kiyev üçün böyük fürsətlər pəncərəsidir. İndi Xersonun tamamilə Rusiya işğalından təmizlənməsi Ukraynanın keçirəcəyi uğurlu əks-hücum əməliyyatlarından asılıdır, burada isə başqa bir əmma ortalığa çıxır. Ukraynanın taleyinin Rusiya ilə ABŞ arasında geosiyasi alver predmetinə gətirilməsi NATO-nun Kiyev üçün təhlükəsizlik təminatlarını qaranlıqlara doğru itələyir. Onsuz da müharibə başlayandan bu yana ABŞ ilə Rusiya məxfi təmaslarda olublar, burada təəccüblə qarşılanacaq bir hal da yoxdur. Vaşinqtonla Moskvanı Ukraynanın mütləq suverenlik taleyi yox, müharibənin yaratdığı nəticələrin necə bölüşdürülməsi məsələləri düşündürür. Ancaq əks qütblər bir-birini tələyə salmaq potensialını da nəzərdən qaçırmırlar. Elə bu səbəbdəndir ki, ABŞ və Rusiya prezidentlərinin müşavirlərinin beynəlxalq ictimaiyyətdən gizlədilən danışıqları mətbuata sızdırıldı, mümkün mesaj ondan ibarətdir ki, Ağ Evlə Kreml Ukraynadakı müharibəni öz xeyirlərinə doğru necə bitirməyin formullarını axtarırlar".

**A.Kərimovun fikrincə, ABŞ Ukraynaya hərbi yardımı elə səviyyədə edir ki, bu, Moskva-Vaşinqton xəttində birbaşa qarşıdurma meyli yaratmasın. Gizli danışıqların bir üzü də burada görünür:** "Hətta ABŞ "HIMARS" raketlərinin daha uzaq hədəfləri vuranlarını yox, yaxın məsafədə əməliyyat yerinə yetirənlərini Ukraynaya verir. ABŞ ehtiyatlanır ki, nisbətən uzaqmənzilli "HIMARS"ları Ukraynaya versə, Kiyev Rusiya ərazisini bombalaya bilər. ABŞ lideri Rusiya-Ukrayna müharibəsi fonunda qışın gəlişinin Avroatlantik məkan üçün yaratdığı təhdidlərin miqyasını anlayır. Yəqin, buna görədir ki, Bayden Rusiya ilə Ukraynanın qışa qədər nə edəcəklərinə dair ümidlərini dilə gətirib və burada yenə də Kiyevə ərazi güzəştinə getmək kimi subliminal mesajı diqqətə çatdırıb. Düzü, ABŞ ilə Rusiyanın sövdələşmələrinin nəticəsi olaraq oyun qaydalarının hansı forma və ölçü qazanacağını proqnozlaşdırmaq çətindir. Görünən odur ki, ABŞ başda olmaqla Qərb ölkələri Ukraynadakı müharibənin yorğunluğunu aradan qaldırmaq üçün Moskva ilə danışıqlara üstünlük verirlər. Hərçənd ki, cari şəraitlə danışıqlara getmək Rusiyanın özünə də sərf edir. Lakin Ukrayna ərazilərinin geri qaytarılması işində əzmkar və qətiyyətli davranır".

**İsmayıl Qocayev**

# Bakı Paşinyanın absurd təkliflərini qəbul etməyəcək

## Ermənistan faktiki olaraq Rusiya və Qərbin açıq dəstəyini itirib



**Ermənistanın Baş naziri Nikol Paşinyan Soçidə keçirilən görüşdə Bakıya Qarabağ ətrafında "hərbsizləşdirilmiş zona" yaratmağı təklif etdiyini deyib. Baş nazirin sözlərinə görə, bunun nəticəsində Qarabağda "müdafiə ordusuna" ehtiyac qalmaya bilər:**

"Bu təklif qüvvədə qalmaqda davam edir". Paşinyan bildirib ki, İrəvan eyni təkliflə Ermənistan-Azərbaycan sərhəd zonası ilə bağlı da çıxış edib: "Biz qoşunların sərhəddən 1991-ci ildəki vəziyyətə uyğun qaytarılmasını, üç kilometrlik hərbsizləşdirilmiş zona yaradılmasını təklif etmişik. Dünən biz təklifin yenilənmiş variantını Azərbaycana təqdim etmişik".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, regionda son dövrlərdə baş verən prosesləri izlərkən vəziyyətin nədən ibarət olduğunu asanlıqla anlamaq olar. Analitikə görə, Ermənistan faktiki olaraq Rusiya və Qərbin açıq dəstəyini itirib:** "Ermənistan tərəfindən bu tipli açıqlamalar gəlməsi gözləniləndir. Nəzərə alaq ki, sülh danışıqları uzunmüddətli proseslərin nəticəsi olaraq baş tutur. Həmçinin, tərəflərdən güclü siyasi iradə və uzaqgörən siyasət tələb olunur. Azərbaycan buna hazır olması barədə dəfələrlə bəyanat verib. Rəsmi Bakı qoyulan şərtlərin yerinə yetirilməsi qarşılığında qısa müddətdə proseslərin başlanmasına təkan verə bilər. Amma Paşinyanın sərgilədiyi ikili mövqe sülhə aparan yox, sülhdən kənarlaşan yoldur. Azərbaycan absurd təklifləri qəbul etməyəcək".

**S.Əsədliyə görə, sülh müqaviləsinin imzalanması Azərbaycan üçün vacibdirsə, Ermənistan üçün daha çox önəmlidir:** "Faktiki olaraq məğlub ölkədə yaranmış iqtisadi böhran, siyasi ziddiyyətlər, həmçinin işsizlik, baş alıb gedən korrupsiya halları, yoxsulluq səviyyəsi bu ölkəni sürətlə çökdürür. Ermənistanda istər köhnə, istərsə də yeni hakimiyyətin yürütdüyü məntiqsiz, ədalətsiz və reallıqdan uzaq siyasətin nəticəsidir ki, ölkənin qonşu dövlətlərlə, xüsusilə Azərbaycanla münasibətlərdə heç bir irəliləyiş hiss olunmur. İrəvanın pozucu addımları Ermənistanın küncə sıxılmasına gətirib çıxaracaq".

**İsmayıl**



# Aİ XİN başçıları Ermənistandakı missiyanın fəaliyyətini müzakirə edəcək

**Aİ-nin xarici işlər nazirləri Ermənistandakı mülki missiyanın fəaliyyətini müzakirə edəcək.**

APA xəbər verir ki, 14-15 noyabr tarixlərində xarici işlər nazirlərinin iştirakı ilə Brüsseldə Aİ-nin Xarici İşlər Şurasının iclası keçiriləcək.

İclasa Aİ-nin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell sədrlik edəcək.

İclasın ilk günündə Aİ ölkələrinin XİN başçıları Rusiyanın Ukraynaya təcavüzü ilə bağlı müzakirələr aparacaq. Müzakirələrdən əvvəl isə Ukrayna xarici işlər naziri Dmitri Kuleba videoformatda çıxış edəcək.

Aİ-yə üzv ölkələrin XİN başçıları Qərbi Balkanlardakı vəziyyəti müzakirə edəcəklər, həmçinin Aİ-nin Ali Nümayəndəsi Şarm əl-Şeyxdə keçirilən COP27 iclasının ilk həftəsinin yekunları barədə nazirləri məlumatlandıracaq.

Nazirlər həmçinin Livandakı vəziyyəti, Aİ-nin Ermənistandakı monitorinq missiyasını və İrandakı vəziyyəti müzakirə edəcəklər.

# Din də, şiəlik də, inanclar da qurban verilir

## İran rejiminin ixrac etdiyi ideologiya şiəlikdən daha çox, xomeyniçilik prinsiplərinə söykənir

**"Azərbaycanda, ümumilikdə bu coğrafiyada inanclı insanların İrana bağlılığının-simpatiyasının kökündə şiəlik dayanır. Lakin İran rejiminin ixrac etdiyi ideologiya şiəlikdən daha çox, xomeyniçilik prinsiplərinə söykənir".**

**Bu sözləri "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, molla rejiminin ixrac etdiyi siyasi-dini ideologiyanı anlamaq üçün bir sualın cavabı axtarışına ehtiyac var:** "Xomeyniçilik Allaha, yoxsa İrana ibadəti buyurur? İranda 1979-cu il "İslam inqilabı" ilə vaxtilə Şahın əleyhinə çıxdığı üçün sürgündə olan Ruhullah Xomeyni Fransadan Tehrana qayıtdı. Onun Avropa ölkəsindən İrana inqilab lideri olaraq dönüşü, ardınca Qərbə qarşı düşmən mövqe sərgiləməsi suallar yaradırdı. Hərçənd, dünyanın siyasi sistemində Xomeyninin hansısa məxfi razılaşmalar olmadan, özü də Avropa ölkəsindən İrana lider olaraq dönüşü mümkünsüz idi və burada onun Vaşinqtonla məxfi yazışmaları yada düşür. Konkret sənədlərə əsaslanan bu faktlar Xomeyninin hakimiyyətə gəlişində heç bir "ilahi qüvvə"nin rol oynamadığını, əksinə, sonradan "Böyük şeytan" adlandıracağı Birləşmiş Ştatların əməyi aydın görünür. Nə qədər gizlətmək istəsələr də, tarix Ruhullah Xomeyninin "Allahın elçisi", yaxud "Yer üzərindəki canişini" ideologiyasının sadəcə İranın inanclı insanları ələ almaq üçün ucuz təbliğatından başqa bir şey olmadığının şahididir. İnqilabdan sonra İranın ABŞ-a qarşı sərt mövqeyi, xüsusilə amerikalı diplomatların girov alınması Vaşinqtonla Xomeyninin məxfi yazılaşmaları fonunda fikirləri qarışdırır, ortaya suallar çıxarır. Bununla bağlı iki mümkün versiya var. Birincisi, məxfi razılaşmadır. İnqilabdan sonra ABŞ-ın Yaxın Şərqdə atdığı bütün addımların İranın yolunun açılması ilə nəticələnməsi bu fikri gücləndirir. İkincisi, siyasi gedişdir. Xomeyni əvvəlcə amerikalıları inandırdı, daha sonra razılaşmanı pozdu. Hər iki fikir üzərindən müzakirələr açmaq olar. Lakin bu məsələdə bir aksioma var, Xomeyni Allahın yox, Qərbin göndərdiyi adamdır. 1970-ci illərdə Qərb üçün SSRİ-nin sərhədləri dibində dünyəvi və getdikcə Moskvaya ılıq münasibət sərgiləyən Şah rejimindənsə, kommunizmin yayılmasının qarşısında sədd olacaq radikal dini rejim daha münasib idi. Xomeyninin hakimiyyətə gələndən sonra İranda, xüsusilə Cənubi Azərbaycanda sol hərəkatının məhv edilməsi də diqqəti bu istiqamətə çəkir. Faktlar deməyə əsas verir ki, siyasi planlarda bir fiqur kimi Xomeyninin missiyası həm kommunizmin yayılmasının qarşısını almaq, həm də İslam dünyasında parçalanmanı dərinləşdirmək idi".



**A.Nərimanlıya görə, İranın xomeyniçiliyə əsaslanan xarici siyasət doktrinasına nəzər yetirdikdə bütün məsələnin nə Kərbəla müsibəti, nə Əhli-beyt eşqi, nə də şiəlik olduğu aydın olur:** "Bütün məsələ İranın imperiya maraqlarıdır və bu məqsəd uğrunda din də, şiəlik də, inanclar da qurban verilir. Xomeyniçilik təcrübəsi inqilabi təcrübə olaraq, islam konsepsiyası kimi təbliğ edilir. Təkcə bu məqam xomeyniçiliyin yeni dini cərəyan kimi meydana gəldiyini, nə islamın, nə də islamın şiə məzhəbinin təməl prinsiplərinə uyğun olmadığını təsdiq edir. Bir daha aydın olur ki, xomeyniçilik nə Allaha, nə onun dini islama, nə də islamın şiə məzhəbinə ibadət yox, İrana bidətdən, bu ölkənin imperiya maraqlarından xidmətdən ibarətdir".

**İsmayıl**



## "Azərişıq" Kəlbəcərin kəndinə elektrik xətti çəkir

**"Azərişıq" ASC Kəlbəcər rayonunun Alagöllər kəndi ərazisinə 35KV-luq elektrik enerjisi xətti çəkir.**

22 km məsafədə çəkilən xətt N saylı hərbi hissənin işıqlandırılması üçün istismar ediləcək.

Hərbi hissəni işıqlanadırmaq məqsədi ilə ÖİN kabel xəttindən istifadə edilib və 2 ədəd 250 kVA gücündə transformator quraşdırılıb.

## Ukrayna daha 45 hərbçisini vətənə qaytarıb



**Noyabrın 11- də Ukrayna və Rusiya arasında daha bir əsir mübadiləsi baş verib, 45 ukraynalı vətənə qayıdıb.**

Bu barədə Ukrayna Prezidenti Ofisinin rəhbəri Andrey Yermak məlumat verib.

"Biz 45 hərbçini - zabitləri, çavuşları və sıravilərı azad edə bildik. Eyni zamanda, döyüşlərdə həlak olan iki hərbçinin cəsədini də qaytara bildik", - deyə Andrey Yermak əlavə edib.

# Orduya qayğı prioritet məsələdir

## Hərbçilərin mənzillə təminatı onların xidmətinə də müsbət təsir göstərir

**"Ali Baş Komandan, Prezident İlham Əliyev ordu quruculuğunun daha da müasirləşdirilməsini ən ümdə vəzifələr sırasına daxil edib". Bunu Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclasında Maliyyə naziri Samir Şərifov deyib.**

Nazir bildirib ki, cari illə müqayisədə növbəti ilin büdcəsindən bu istiqamətə 6,6 faiz çox vəsait ayrılması nəzərdə tutulur: "2023-cü ildə Azərbaycan hökuməti 20 il və daha çox xidmət etmiş, işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması üçün 35 milyon manat vəsait ayıracaq".

**Millət vəkili Elman Məmmədovun sözlərinə görə, hərbi qulluqçularımızın sosial təminatının daha da yaxşılaşdırılması Azərbaycanda sosial siyasətin prioritet istiqamətlərindəndir.** Vətən müharibəsində əldə etdiyimiz Zəfərdən sonra hərbi sahədə həm quruculuq işlərinin, həm sosial müdafiə tədbirlərinin genişləndirilməsi müşahidə edilir. Hərbçilərimiz, eləcə də Qarabağ qaziləri və şəhid ailələri Azərbaycanda hər zaman sosial baxımdan dəstəklənən vətəndaşlardır. Son dəyişiklik ondan xəbər verir ki, hərbçilərin sosial durumunun yaxşılaşdırılması ilə bağlı tədbirlər davamlı olacaq.

Deputat bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən biri vətəndaşların sosial durumunun və maddi rifah halının günü-gündən yaxşılaşdırılmasıdır: "Əlbəttə, bu durum Azərbaycan hərbçilərinin sosial vəziyyətini daha da yaxşılaşdırmaq məqsədi güdür və onların həyat tərzinə müsbət təsir göstərir. Hərbçilərimizə istər evlərin, istər məzuniyyət və digər müavinətlərin verilməsi mühüm amillərdən biridir.

Ölkəmizdə hər zaman müdafiə sahəsinə xüsusi diqqət göstərilib. Ona görə də bu il sözügedən sahəyə ayrılan vəsaitin miqdarı keçən ildən artıqdır. Hərbçilərimizin təminatı-maaşları, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sağlamlıqlarının qorunması daim diqqətdə saxlanılır. Parlamentdə sonuncu dəfə səsləndirilən təkliflərdə bu məqamlar nəzərdə tutulub. Vətənimizin müdafiəsində iştirak edən hərbçilərimizin maaşlarının artırılması və onlara müxtəlif müavinətlərin verilməsi əsas məqsədlərdən biridir. Eyni zamanda, hərbçilərimizin səhiyyə xərcləri üçün də müavinətlərin olması Qanunda öz əksini tapıb. Azərbaycan Ordusu və hərbçiləri güclü olmasaydı, bu gün qalib xalq ola bilməzdik".



**Hərbi ekspert Ramil Məmmədlinin sözlərinə görə, Azərbaycan hökuməti tərəfindən 2015-ci ildən etibarən hərbi qulluqçuların mərhələli şəkildə mənzil təminatı ilə bağlı real addımlar atılır. Xidmət müddətindən asılı olaraq hərbiçilərin mənzil şəraitinin yaxşılaşdırılması prosesi hazırda da davam edir:**

"Hərbçilər ölkə üzrə qeydiyyat və ya xidməti ərazi üzrə mənzillərlə təmin olunurlar.

Hazırda xidmətdə olan hərbçilər hərbi şəhərcik formatında tikilən binalarda evlə təmin olunurlar. Həmçinin də qeydiyyatda olduqları ərazi üzrə mənzil və ya torpaq sahəsi ilə təmin olunurlar. Ümumiyyətlə, dövlətin qarşısında duran əsas məqsəd hərbi qulluqçuların mənzil problemlərinin həlli məsələsini sona çatdırmaqdır. Dövlət proqramına əsasən, yaxın illərdə bütün hərbi qulluqçular mənzillə təmin olunacaqlar.

Hazırkı statistikaya istinadən bütün işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunduğunu demək olmaz. Ancaq hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar davam edir. Həmin komissiya mərhələli şəkildə hərbçilərin bu istiqamətdəki problemlərinin həlli ilə bağlı tədbirlər həyata keçirir. Yeni şəhərciklər inşa edilir, torpaq sahələri verilir və hərbçilər xidməti mənzillərlə təmin olunurlar".

R.Məmmədli bildirib ki, istənilən vətəndaşın mənzillə təminatı onun həyatının prioritet hissəsidir: "Hərbçilərdə isə bu bir qədər də vacib məsələdir. Çünki həyatını dövlətin təhlükəsizliyi və müdafiəsinə həsr edən şəxsin yüksək gəlir əldə etməsi bir qədər real deyil. Bu baxımdan dövlət müxtəlif formada hərbçilərin mənzil problemlərini həyata keçirir. Bu, dünyanın bir çox ölkəsində belədir. Azərbaycan da müstəqilliyinin ilk illərində bu məsələdə maneələrlə qarşılaşsa da, göründüyü kimi, indi bu problem öz həllini tapıb. Əlbəttə ki, hərbçilərin mənzillə təminatı onların xidmətinə də müsbət təsir göstərir. Artıq ev-mənzil problemi olmayan hərbçi öz xidməti fəaliyyətini rahat şəkildə, əlavə çətinliklər olmadan davam etdirir. Yeni hərbçi öz ailəsinin məskunlaşması - yaşayışı ilə bağlı hər hansı əziyyət çəkmir. Dövlətin hərbçilərin mənzillə təminatı məsələsində əsas məqsədi elə budur".

**Şəymən Bayramova**




# Dövlət büdcəsində nəzərə alınmalıdır

## "40 milyona yaxın azərbaycanlının hüquqlarının müdafiəsinə diqqəti artırmalıyıq"

**"Gələn ilin dövlət büdcəsində ərzaqlıq buğda istehsalı üçün 800 milyon manat vəsait ayrılır. Bu, sevindirici haldır". Bunu Milli Məclisin müvafiq komitələrində 2023-cü ilin büdcəsinin müzakirəsi zamanı deputat Eldar İbrahimov deyib. Parlament üzvü bildirib ki, ilk dəfədir ki, ərzaqlıq buğda istehsalı üçün bu qədər vəsait ayrılır: "Bundan başqa, kənd təsərrüfatına da ayrılan vəsaitin bundan öncəki büdcə zərflərindəkindən çox olması iqtisadiyyatımızın inkişafını göstərir".**

Milli Məclisdə Azərbaycandan kənarda yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi üçün büdcədə vəsait ayrılması təklif edilib. Bu təkliflə deputat Səməd Seyidov çıxış edib: "Biz artıq səfirliklərimizin sayını da artırmalıyıq. Hər bir halda vaxt gəlib çatıb ki, yeni səfirliklərin açılması ilə bağlı siyahıya yenidən baxaq. Prezidentin çıxışında qeyd etdiyi kimi, ölkələrdə yaşayan azərbaycanlının hüquqlarının müdafiəsi məsələsinə xüsusi diqqət yetirək. 40 milyona yaxın Azərbaycandan kənarda yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsinə diqqəti artırmalıyıq. Bu da növbəti vəsaitlər tələb edir. Bunu daha yüksək səviyyədə büdcədə görmək bizim hamımızın arzusudur".

**İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva məktəblərdə qış mövsümünə keçidin havanın temperaturuna uyğun təmin edilməsini təklif edib. O bildirib ki, eyni zamanda məktəblərdə əsas tədris vəsaitləri ilə yanaşı əlavə tədris vəsaitlərinin də dövlət büdcəsi hesabına verilməsinə ehtiyac var:** "Hepatit B və Hepatit C xəstələrinin pulsuz verilən dərmanlarının siyahısının genişləndirilməsini təklif edirik. Yeni tələbə yataqxanalarının tikilməsi üzrə işlər davam etdirilməlidir. Ötən dövr ərzində təbii fəlakət nəticəsində evləri dağılan insanlar var ki, hələ də növbə gözləyirlər. Hərbi qulluqçulara verilən "çörək pulu"nun həcminin artırılmasını təklif edirəm".

**"Azad olunmuş ərazilərdə həyat şəraiti əvvəlkindən də yaxşı olacaq"**

**Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib ki, dövlət büdcəsi təkcə dövlətin maliyyə sənədi deyil. Komitə sədri bildirib ki, dövlətin gücü hədəflərin gerçəkləşməsini illərlə gözləmək məcburiyyətində qalmamasındadır:** "Əhalinin, şəhid ailələrinin, müharibə veteranlarının sosial müdafiəsi sahəsində tədbirlərin davam etdirilməsi və digər istiqamətlərdə xərclər göstərir ki, Azərbaycan inkişaf yolundadır. 2020-ci ilin noyabr ayında Ordumuz və Ali Baş Komandanın rəhbərliyi ilə 30 il davam edən işğala son qoyuldu. Qarabağ və Şərqi Zəngəzurun bərpası, azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin olunması, qabaqcıl rəqəmsal texnologiyaların geniş tətbiqi ilə məşğulluq imkanlarının yaradılması, həmin ərazilərdə infrastrukturların, o cümlədən hərbi infrastrukturların qurulmasına ayrılan vəsait bizdə inam yaradır ki, o torpaqlarda həyat şəraiti əvvəlkindən də yaxşı olacaq. Ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi üçün kompleks tədbirlərin görülməsi də büdcədə nəzərdə tutulub. 2023-cü il dövlət büdcəsində ərazilərin minalardan təmizlənməsi üçün də kompleks tədbirlərin görülməsi üçün vəsait ayrılacaq. Eyni zamanda dövlət büdcəsində ehtiyata və istefaya buraxılmış hərbçilərin mənzil təminatı ilə bağlı xərclərin büdcədə artırılması da çox sevindiricidir".

**"Babək Səmidlinin səsinin yayılması ordumuza kölgə salmaq məqsədi daşıyır"**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib ki, Babək Səmidlinin səs yazısı iddiadır. Bu, Müdafiə Nazirliyi tərəfindən təsdiqlənməyib. Komitə sədri hesab edir ki, səsin yayılması orduya kölgə salmaq məqsədi daşıyır:** "Bu gün ordu quruculuğunda çox mühüm işlər görülür. Müdafiə Nazirliyi tərəfindən təsdiq olunmayan səs yazısına nə reaksiya verilməlidir? Ordunun təminatı, təchizatı göz qarşısındadır. Hesab edirəm ki, səsin yayılmasının məqsədi ordumuzun işinə kölgə salmaqdır".

Qeyd edək ki, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev bildirib ki, bu yaxınlarda Ordunun ikinci korpusunun rəhmətə getmiş korpus komandirinin müavini Babək Səmidlinin səs yazısı yayılıb: "O, öz səs yazısında deyirdi ki, müharibə dövründə bizim əsgərlərimizin 40 faizi qoruyucu gödəkçələrlə təmin olunmayıb. Sosial şəbəkələrdə bu, xeyli vaxtdır müzakirə mövzusudur. Əvvəla, buna aydınlıq gətirilməlidir ki, bu, Babək Səmədlinin öz səsidir, ya yox. Öz səsidirsə, buna aydınlıq gətirilməlidir ki, niyə bu belədir. Ona görə mən hesab edirəm ki, orduya ayrılan vəsait artırılmalıdır".

**"Ermənistan gəlirlərinin aşağı olduğu vaxtda hərbi büdcəsini niyə artırır?"**

**Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, Ermənistanın hərbi büdcəyə ayırdığı vəsait 2020-ci ildə 669 milyon, 2022-ci ildə 754 milyon dollar olub, nəhayət, 2023-cü il üçün 1,2 milyard dollar təşkil edəcək:** "Guya, sülhə gəldiklərini elan etdikləri şəraitdə bu artımlar nəyə xidmət edir? Gəlirlərinin aşağı olduğu bir vaxtda bunu niyə edirlər? Onlar əhalinin səhiyyə, təhsil xərclərindən kəsərək hərbi büdcəyə yönəldirlər. Aldıqları silahlar növbəti dövr hansı əməliyyatlara ayrıla bilər?".

**"Cəzaçəkmə müəssisələri şəhərdən kənara çıxarılmalıdır"**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib ki, cəzaçəkmə müəssisələri şəhərdən kənara çıxarılmalıdır:** "Həmin müəssisələrin yeri hərraca çıxarılıb satılsa, onun pulu ilə Bakının kənarında müasir standartlara cavab verən cəzaçəkmə müəssisələri tikmək olar. Bu həm insan hüquqları məsələsinə uyğundur, həm də Azərbaycanın beynəlxalq imici məsələsidir".

**"Ünvanlı sosial yardım "uşaq pulu" adlandırılsın"**

**Deputat Fəzail Ağamalı ünvanlı sosial yardımın "uşaq pulu" adlandırılmasını təklif edib:** "Bu gün ünvanlı sosial yardım siyasəti həyata keçirilir. Yaxşı olmazdımı ki, bu məfhum, yardım paketini biz uşaq pulu adına transfer edək? O ailədə ünvanlı sosial yardım olur ki, onlar çoxuşaqlıdırlar və ailədə bir nəfərdən artıq işləmir. O da indiki reallıqda 500-600 manat ailə gəliri deməkdir. Bəlkə bunun da üzərində düşünülsün?".

**"Çəkdiyimiz filmlərə ancaq özümüz baxırıq"**

**Deputat Vüqar İsgəndərli bildirib ki, qələbəmizlə bağlı Hollivud səviyyəsində, böyük büdcəsi olan film çəkmək lazımdır:** "Hazırda filmlər çəkilir, lakin özümüz çəkirik, özümüz də baxırıq. Lakin dünya səviyyəli filmlər çəkilməlidir. Çünki Qarabağı hazırda bərpa edirik, həmin təbii mənzərə sonra alınmayacaq. Bu, təxirəsalınmaz, Hollivud rejissorları və redaktorları ilə birgə çox böyük büdcəsi olan məsələdir. Büdcədə səxavətli olmalıyıq. Dünya səviyyəsinə çıxmaq üçün bu, çox vacibdir. Ermənilər bununla bağlı bir neçə film çəkiblər və Hollivud səviyyəsində bu filmləri göstərirlər. Yalan, riyakarlıq üzərində qursa da, çox təəssüf ki, bu, bugünkü faktdır".

**İsmayıl Qocayev**



# İranın Azərbaycandakı səfiri XİN-ə çağırılıb

## Rəsmi Bakının narazılığı Tehrana çatdırılıb

**İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi noyabrın 11-də Xarici İşlər Nazirliyinə çağırılıb.**

Bu barədə "Şərq"ə XİN-dən məlumat verilib.

Görüşdə son zamanlar İran mediasında Azərbaycan Respublikası əleyhinə aparılan təbliğat, qarayaxma kampaniyası, İranın yüksək vəzifəli siyasi və hərbi rəsmilərinin iki ölkə arasındakı münasibətlərin ruhuna uyğun olmayan təhdid xarakterli ritorikaları ilə bağlı narazılıq və narahatlıq qarşı tərəfin diqqətinə çatdırılıb.

Azərbaycanın Konstitusiya quruluşunun əsaslarına qarşı cinayət törətmiş və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilmiş Azərbaycan Respublikasının vətəndaşlarının İranda məskunlaşmalarına şərait yaradılmasının qəbuledilməzliyi və cinayətkarların təhvil verilməsinin zəruriliyi bir daha qeyd olunub.

Azərbaycan Respublikasında separatçılığı qızışdıran və cinayət təqibindən yayınaraq digər ölkələrdə gizlənən şəxslərin İran səfirliklərində qəbul edilməsinin qeyri-dost addım olduğu bildirilib.

İranda Azərbaycana qarşı bu kimi məlumatların yayımlanmasının və fəaliyyətin aparılmasının qəbuledilməz olduğu və ən qısa zamanda bunlara son verilməsinin gözlənildiyi vurğulanıb.

**Aygün**

# Rusiya Baydenin qardaşları və bacısına sanksiya tətbiq edib

**Rusiya ABŞ prezidenti Co Baydenin iki qardaşına və bacısına sanksiya tətbiq edib.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bu gün Rusiya Xarici İşlər Nazirliyi Federasiya ərazisinə girişi qadağan olunan 200 ABŞ vətəndaşının siyahısını dərc edib. Siyahıda ABŞ prezidenti Co Baydenin iki qardaşı, Ceyms və Frensiz Baydenlər, bacısı Valeri Bayden Ouens yer alıb.

Rəsmi Moskvanın "stop siyahısı"na Ağ Evin mətbuat katibi Karin Jan-Pier də düşüb.

# Ermənilər yarışı yarımçıq tərk edib

## Malik Həsənov erməni boksçu ilə döyüşmədən qalib elan olunub



**Polşanın Keltse şəhərində keçirilən beynəlxalq turnirdə növbəti dəfə Azərbaycan və Ermənistan boksçularının döyüşü baş tutmayacaq.**

Boks Federasiyasından apasport.az saytına verilən məlumata görə, buna ermənilərinin yarışı yarımçıq tərk etməsi səbəb olub.

51 kq-da 1/4 final çərçivəsində Armen Quşçiyan (Ermənistan) Məsud Yusifzadə (51 kq) ilə döyüşdən imtina etmişdisə, bu dəfə Ermənistan yığması turnirdən ayrılıb. Bu da o deməkdir ki, Malik Həsənov (63,5 kq) yarımfinalda Hamlet Minatsakanyanla (Ermənistan) döyüşmədən həlledici görüşə vəsiqə qazanıb. Onun finalda rəqibi Frank Roman Samuel (Ruminiya) - Frank Kleri (İrlandiya) cütünün qalibi olacaq.

Qarşılaşma noyabrın 13-də keçiriləcək.



# Son çırpıntılar...

## İranın düşmən siyasəti öz başında çatlayacaq

**İrandakı fars-molla rejiminin Azərbaycana xəyanətinin, qərəzli münasibətinin, uğurlarımıza qısqanclıqla yanaşmasının dəfələrlə şahidi olmuşuq. Son dönəmlər isə Tehran rejimi ölkəmizə və xalqımıza qarşı xainliyini bütün çılpaqlığı ilə ortaya qoymaqda, kin-küdurətini, aşırı nifrətini açıq düşmənçiliklə sərgiləməkdədir.**

İranın şah rejiminin ötən əsrin başlanğıcında Səttarxan, həmin yüzilliyin 20-ci illərində Məhəmməd Xiyabani, 40-cı illərin ortalarında 21 Azər hərəkatlarını o zamanlara qədər dünya tarixində misli görünməmiş qəddarlıq və amansızlıqla yatırdığı yaddaşlardan silinməyib. 1979-cu ildə qurulan fars-molla rejimi soydaşlarımıza qarşı aqressiv münasibətdə heç də sələflərindən geridə qalmadığını isbatladı. Molla rejiminin təmsilçiləri müstəqilliyimizin bərpasının ilk onilliklərində Azərbaycana münasibətdə nisbətən "malalama" siyasətinə üstünlük verirdilər. Kin-küdurətlərini çox vaxt sətiraltı sözlərlə ifadə edirdilər. Ancaq indi "müsəlman" maskası yırtılmış İranın əsl sifəti ortalıqdadır. Fars rejimi özü də nəyəsə "bər-bəzək " vurmağa, gözlə açıqaydın görünən real münasibətləri "malalamağa" ehtiyac duymur. İranın şovinist millətçi dairələri heç vaxt Azərbaycana münasibətdə səmimiyyət nümayiş etdirməyiblər. Əksinə, fürsət düşən kimi əbalarının altında gizlətdikləri zəhərli xəncəri kürəyimizə sancıblar. 30 il ərzində Ermənistanla davam etmiş münaqişə öz yerində, bir yandan da İran ölkəmizə qarşı daim destruktiv mövqe, soyuq münasibət ortaya qoyub. Bu soyuqluğu doğuran əsas faktor isə İranın Azərbaycan dövlətinə qarşı əsassız iddialarıdır. Halbuki, məhz tarixi, dini və mədəni bağları olan iki ölkə qarşılıqlı hörmət və ehtirama əsaslanan münasibətlər qura bilərdi. Amma İran səmimi dostluq və mehriban qonşuluq siyasətini deyil, rəsmi Bakıya qarşı qısqanclıq, qərəz və açıq-aşkar təxribat yolunu seçdi. Bunu hələ Birinci Qarabağ müharibəsinin gedişində görmək mümkün idi. Azərbaycanla dini həmrəylik nümayiş etdirmək əvəzinə, fars rejimi işğalçı Ermənistanla 35 kilometrlik sərhəd xəttini nəinki bağladı, işğalçıya iqtisadi və hərbi dəstək verdi. Bu azmış kimi, 1994-cü ildə imzalanmış müvəqqəti atəşkəsdən sonra Azərbaycanın işğal altındakı ərazilərinin talanmasında rol oynadı. Məsələnin ən acı və utancverici tərəfi isə "şiə təriqəti"nin müdafiəçisi kimi çıxış edən İran rejiminin Qarabağdakı məscidlərin viran edilməsi, dağıdılması, tövlə kimi istifadə olunmasına və s. vandalizm aktlarına göz yumması idi. 2019-cu ilin iyununda "Part Saman Jahan Co" adlı İran şirkəti Şuşadakı tarixi Yuxarı Gövhər Ağa məscidinin "təmir işlərinə" cəlb edildi. Daha sonra bu məscid "İran məscidi" kimi təqdim olunmağa başlandı. İranın hər vəchlə reklam etdiyi "dini həmrəylik" şüarları reallıqda bunun tam əksini göstərirdi. Prezident İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxışı zamanı bəzi müsəlman ölkələrinin rəhbərlərinə açıq mesaj yolladı. Dövlət başçısı qeyd etdi ki, məscidləri dağıdan ermənilər müsəlman ölkələri ilə dost ola bilməz: "Məscidləri dağıdana müsəlman ölkələrinin rəhbərləri qucaq aça bilməz, bilər? Onları qucaqlayıb öpə bilər? Bu, riyakarlıqdır, bu, satqınlıqdır. Bunun başqa adı yoxdur. Ona görə müsəlman aləmində biz Ermənistanı əsas dayaqlardan təcrid etdik. Düzdür, tam təcrid edə bilmədik, bunun başqa səbəbləri var - bax, dediyim riyakarlıq. Ancaq bütövlükdə Ermənistan müsəlman aləmində məscidləri dağıdan, təhqir edən ölkə kimi tanındı və bunu biz etdik".

Fars rejiminin saxta dinçiliyi, "qonşuluq" münasibəti və qeyri-səmimiliyi özünü 44 günlük Vətən müharibəsinin gedişində və sonrakı mərhələdə də açıq büruzə verdi. Müharibə zamanı İrandan Ermənistana silah-sursat daşıyan hərbi karvanlar, ölkənin Ermənistana hərbi yüklərin daşınması üçün hava məkanını bağlamaması və s. faktlar İranın münaqişədə kimin tərəfində olmasının bariz nümunəsi idi. İran anti-Azərbaycan əməllərini müharibədən sonra da davam etdirdi. Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazilərə yükdaşımalar həyata keçirdi. Qarabağdakı separatçı tör-töküntülərinə hər cür dəstək verdi. Yalnız Azərbaycan dövlətinin müdaxiləsindən və qətiyyətindən sonra ifşa olunaraq çətin vəziyyətə düşən Tehran rejimi bu əməlindən geri çəkilməyə məcbur qaldı. Tehran rejiminin, xüsusən, onun media qurumlarının da Azərbaycanın Zəfərini həzm edə bilmədiyi göz önündədir. İran gah Zəngəzur dəhlizinə qarşı çıxır, gah sərhədlərin toxunulmazlığının "qırmızı xətt" olduğunu deyir, gah qaçaqaçla Qafanda suvağı qurumamış binada "baş konsulluğun" açılışını edir, gah da Şirazda törədilmiş terror aktının Azərbaycan tərəfindən "planlaşdırıldığını" iddia edir. Əslində Tehran rejimi hər sahədə ifşa olunduğunu görür, Azərbaycanın düşmənləri ilə dost münasibətlərinin üzə çıxmasından əndişələnir, məhz ona görə əsl simasını gizlədə bilmir. Nəticədə Azərbaycan dövlətini, onun rəhbərliyini, mətbuatını hədəfə alan addımlar atır. Ölkəsində baş verən narazılıqları, bir neçə aydır davam edən etiraz aksiyalarını, toqquşmaları gözardı edən İran mətbuatı Azərbaycanın media qurumlarının, onun rəhbərlərinin ünvanına təhqirlər, hədələr yağdırır. İrandakı etiraz aksiyalarının Azərbaycan mediasında işıqlandırılması, Azərbaycan mətbuatının Güney Azərbaycanda baş qaldıran hərəkata olan marağı Tehran mediasını və molla rejimini qıcıqlandırır. Lakin Tehran artıq çoxdan anlamalıydı ki, Azərbaycan artıq 30 il əvvəlki zəif və gücsüz ölkə deyil. Azərbaycan dövləti bu gün nəinki öz vətəndaşlarının qayğısına qalır, onların rifahı üçün çalışır, həm də bütün dünyadakı, o cümlədən Güney Azərbaycandakı soydaşlarımızın hüquqlarını da müdafiə etmək qüdrətindədir. Etiraz aksiyalarından da görünür ki, güneydə soydaşlarımız artıq öz hokumətlərinin qurulmasını istəyirlər. Molla rejimi isə on illərdir yürütdüyü zorakılıq siyasətinə davam edir, öz vətəndaşını əzir, türklərin əleyhinə olan kim varsa, hamısı ilə əməkdaşlıq edir. İranda rəsmi rəqəmlərə görə, 80 min erməni yaşayır və onların məktəblərinin sayı 50-dən çoxdur. Buna paralel olaraq digər tədris və təhsil müəssisələri var. Üstəlik, erməni dilində kitablar sərbəst şəkildə yayılır. Bunun əksinə, Tehran rejimi milli və mədəni hüquqlarını, Azərbaycan türkcəsini tələb edən soydaşlarımıza qarşı repressiv siyasət həyata keçirir. Halbuki, İranda yaşayan türklər İran adlanan ölkənin əsas etnosudur. Türklər İran qanunnaməsində "etnik azlıqlar" kimi qəbul olunsa da, reallıqda etnik çoxluqdur. İranda hakimiyyəti ələ keçirənlər isə azlıqda olan şovinist farslardır. Fars-molla rejimi şovinizmə söykənərək soydaşlarımızı sıxışdırır, onun milli hüquqlarını tapdalayır, Azərbaycan dilinin inkişafına, cəmiyyətdə aparıcı mövqedə olmasına imkan vermir. Bu haqsızlıqlara etiraz edən azərbaycanlılar isə ən ağır cəzalara məruz qalırlar. Onların içində qətlə yetirilənlər, uzun müddət həbsə məhkum edilənlər və hansısa bir yolla canını götürüb xaricə mühacirət edənlər də var. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən IX Zirvə Görüşündə çıxışı zamanı bu məsələni xüsusi qabartdı. Ölkə rəhbəri vurğuladı ki, türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir: "Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğraması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatıb". Dövlət başçısı qeyd etdi ki, türk dünyasında gənc nəslin yaşadığı ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır: "Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur". Azərbaycan dövlətinin xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirdiyini vurğulayan Prezident bildirdi ki, biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələri heç vaxt kəsməmələri üçün səylərimizi davam etdirəcəyik. İran rejimi dövlət başçısının mesajlarından düzgün nəticə çıxarmağı bacarmalıdır. Fars-molla hökuməti qətiyyən unutmasın ki, İrandan qat-qat güclü ölkələrin iradəsinə rəğmən öz torpaqlarımızı işğaldan azad etmişiksə, İranın nə düşünməsindən və nə etməsindən asılı olmayaraq, digər məqsədlərimizə də çatacağıq. İranın düşmən siyasəti öz başında çatlayacaq...

**İsmayıl**



# Bir nəfər saxlanılıb

## Bakıda icazəsiz aksiyanın qarşısı alınıb

**Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) binası qarşısında razılaşdırılmamış aksiyanın qarşısı alınıb, bir nəfər saxlanılıb.**

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən bildirilib ki, dünən saat 16 radələrində bir qrup şəxs BŞİH-in binası qarşısında razılaşdırılmamış aksiya keçirməyə cəhd edib.

Cəhdin qarşısı polis əməkdaşları tərəfindən alınıb və həmin şəxslər ərazidən uzaqlaşdırılıblar.

Lakin iştirakçılardan sərxoş vəziyyətdə olan, əvvəllər məhkum olunmuş R.Məmmədov polisin xidməti avtomobilinin arxa şüşəsini sındırdığı üçün saxlanılaraq ərazi polis bölməsinə gətirilib.

*Hazırda müvafiq araşdırmalar aparılır.*

# Goranboyda hərbi qulluqçular qəzaya düşüb

## 2 nəfər yüngül xəsarət alıb



**Noyabrın 11-də N nömrəli hərbi hissəyə məxsus avtomobilin qəzaya uğraması nəticəsində 2 hərbi qulluqçumuz yüngül xəsarət alıb.**

Bu barədə Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, avtomobildə olan digər 5 hərbi qulluqçu tibbi müayinədən keçirilib və heç bir xəsarət almadıqlarına görə xidmət yerlərinə qaytarılıb.

# "WhatsApp"-da "narahat etməyin" funksiyası yaradılıb




**"WhatsApp" bütün dünyada milyonlarla istifadəçi üçün ən çox üstünlük verilən mesajlaşma platformasıdır. Şirkət istifadəçilərin tətbiq təcrübəsini yaxşılaşdırmaq üçün yeni funksiyalar təqdim etməyə davam edir.**

Trend-in məlumatına görə, yeni funksiya "Narahat Etməyin" adlanır. Bu funksiyanın köməyi ilə istifadəçilər "Narahat Etməyin" parametrinə görə zəngi buraxdıqlarını asanlıqla başa düşə biləcəklər.

Telefon parametrlərinə keçməklə bu funksiyanı aktivləşdirə bilərsiniz. Bundan sonra dostunuzdan və ya ailə üzvünüzdən bir neçə saniyə ərzində size "WhatsApp"-da zəng etmələrini xahiş edin. Buraxılmış zəngdən sonra "Narahat Etməyin tərəfindən susdurulur" etiketini görürsünüzsə, bu funksiya telefonunuzda aktivləşdirilib.

*Qeyd edək ki, şirkət hazırda bu funksiyanı Beta istifadəçiləri üçün təqdim edir. Onun stabil versiyası da yaxın günlərdə istifadəyə verilə bilər.*

# Səbrin sonu uzaqda deyil

## Ermənistana bir neçə ay şans verə bilərik



**“Xankəndi istiqamətində, Ermənistanın möhkəmləndiyi nöqtələrdə müəyyən hərbi addımların atılması gözləniləndir”**

**“Azərbaycan tərəfi bir az da səbrli olacaq, lakin səbrin sonu uzaqda deyil. Artıq iki ildir, səbrli davranırıq. Bir neçə ay da Ermənistanla diplomatik əlaqələrin baş tutması üçün şans verə bilərik.**

Ermənistan prosesləri maksimum uzatmağa çalışır. Proses ləngidikcə dünyadakı siyasi vəziyyət də dəyişə, yeni reallıqlar yarana bilər”.

**Bunu ”Şərq”ə açıqlamasında hərbi-siyasi ekspert Həşim Səhrablı deyib.**

Ekspert bildirib ki, hazırkı reallıqda Ermənistan sülh müqaviləsi imzalasa, Azərbaycanın qoyduğu şərtləri yerinə yetirməyə məcburdur:

”Belə halda erməni maraqları kənarda qalır. Ermənilər həm hərbi-texniki gücünü bərpa etməyə, həm də iqtisadi vəziyyətini düzəltməyə çalışır. Yeni tərəfdaşlar tapıb Azərbaycana qarşı güc sərgiləməyi düşünür. Rəsmi Bakı baş verənlərin fərqindədir, indiki şansları əldən vermək istəmir. Bütün mümkün təzyiq vasitələrindən yararlanacaq. Ermənistana qarşı daha ciddi addımlar atacağını gözləmək mümkündür. Prezident İlham Əliyevin Zəfər Günündə, həm də Türk Dövlətlərinin zirvə görüşündəki çıxışı Azərbaycanın qətiyyətli olduğunu deməyə əsas verir. Azərbaycan tərəfi bir az da səbrli olacaq, lakin səbrin sonu uzaqda deyil. Artıq iki ildir, səbrli davranırıq. Bir neçə ay da Ermənistanla diplomatik əlaqələrin baş tutması üçün şans verə bilər. Sonra Xankəndi istiqamətində, Ermənistanın möhkəmləndiyi nöqtələrdə müəyyən hərbi addımların atılması gözlənilən-dir.

Vətən müharibəsi kimi genişmiqyaslı əməliyyatlar keçirilməyəcək, amma hərbi addımlar atıla bilər”.

Qeyd edək ki, noyabrın 11-i saat 00:30-dan saat 00:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Bəzirxana yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bundan başqa, noyabrın 11-i saat 01:45-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocavənd rayonu istiqamətində yerləşən mövqelərinə atəş açılıb.

Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Aygün Tahir**

# Mesaj bəllidir

## Bakının qəlbi Təbrizlə döyünür

**”Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Özbəkistanın Səmərqənd şəhərində keçirilən IX Zirvə Görüşündə çıxışı kifayət qədər diqqətçəkən məqamlar ilə yadda qaldı”.**

Bu barədə ”Şərq”ə açıqlamasında siyasi şərhçi Turan Rzayev deyib. Analitik bildirib ki, Zirvə Görüşündə diqqətçəkən məqamlardan biri türk dövlət başçılarının Qarabağa və Şərqi Zəngəzura dəvət edilməsi oldu: ”44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərə vaxtaşırı diplomatik korpus nümayəndələrinin, hərbi attaşelərin, media mənsublarının, blogerlərin, həmçinin siyasi şəxslərin səfərləri təşkil edilir. Bütün bunlar ilə rəsmi Bakı həm də işğalçı və işğala məruz qalan arasındakı real fərqi göstərməyə çalışır. Ölkə başçısının bu məsələdə əsas prioriteti isə dövlət başçılarının Qarabağa səfərlərinin təşkilidir. Təsadüfi deyil ki, Prezident Səmərqənddə keçirilən IX Zirvə görüşündə türk dövlət başçılarını Qarabağa dəvət etdi. Prezidentin xüsusilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın azad olunmuş torpaqlara üç dəfə səfər etdiyini, Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olduğunu vurğulaması digər türk dövlət başçılarının da Qarabağa, həmçinin Şərqi Zəngəzura rahatlıqla gələ biləcəyinə mesajdır”.



“Cənubi Azərbaycanın müstəqil olması, yaxud ən azı hüquqlarının bərpasının zamanı çatıb”

**Ekspert diqqət çəkib ki, Prezident İlham Əliyev Zirvə Görüşündə Cənubi Azərbaycanla bağlı konkret mesajlar verdi:** ”Ölkə başçısı qeyd edib ki, türk dünyasında gənc nəslin yaşadıqları ölkələrin məktəblərində öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur. Aydın məsələdir ki, ölkə başçısı ”40 milyon azərbaycanlı” deyərkən konkret İran əsarətindəki cənubi azərbaycanlıları nəzərdə tutur. Faktiki olaraq 40 milyon cənubi azərbaycanlı bu gün öz ana dilində təhsil ala bilmir. Halbuki, İran Konstitusiyasının 15-ci və 19-cu maddələrinə görə, ölkədə yaşayan bütün etniklər öz ana dilində təhsil almalı, vətəndaş hüquqlarına malik olmalıdırlar. Buna baxmayaraq, İranda yaşayan qeyri-fars xalqlar arasında yalnız ermənilərin ana dilində məktəbi var. Bundan başqa, rejim azərbaycanlılara qarşı kütləvi repressiyalar təşkil edir, gəncləri sırf ana dillərində danışmaq, təhsil almaq istəmələrinə görə həbsə atıb, işgəncələr verir. İkincisi, Prezident dedi ki, biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi vətənləri ilə əlaqələri heç vaxt kəsməmələri üçün səylərimizi davam etdirəcəyik. Prezidentin bu çıxışı həm də güneydəki soydaşlarımıza ”yanınızdayıq” mesajıdır. Həmçinin onu demək olar ki, Cənubi Azərbaycanın müstəqil olması, yaxud ən azı hüquqlarının bərpasının zamanı çatıb və rəsmi Bakı Təbrizə bu istiqamətdə dəstək verməyə hazırdır”.

**İsmayıl**

# Nazirlik xəbərdarlıq edib

## Kiberdələduzlar hesabınızdakı pulu ələ keçirə bilər



**Kiberdələduzlar onlayn alış-veriş saytlarında məhsulların satışını həyata keçirən vətəndaşları hədəf alaraq ”Azərpoçt” MMC-nin adına açılan saxta saytlar vasitəsilə bank kartı hesablarındakı vəsaiti ələ keçirirlər.**

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətindən məlumat verilib.

*Qeyd edilib ki, şübhəli veb resurslara keçid edərək bank kartı məlumatlarını daxil etməməyiniz tövsiyə olunur.*

# Bakıda nəqliyyat probleminin həlli ilə bağlı xüsusi tapşırıq var



**Bakıda nəqliyyat probleminin həlli ilə bağlı xüsusi tapşırıq var, bu istiqamətdə iş gedir.**

Bunu maliyyə naziri Samir Şərifov noyabrın 11-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin bu birgə iclasında ”Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı deyib.

Qeyd edək ki, müzakirələr zamanı İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirmişdi ki, Bakıda ictimai nəqliyyatın qeyri-effektivliyi tıxac probleminin yaranmasında əsas səbəblərdən biridir.

Z.Oruc qeyd edib ki, əsas iş yerləri, təhsil müəssisələri, səhiyyə, ticarət obyektləri əsasən Bakının 3-4 faizlik hissəsində formalaşıb. ”Səbail, Nəsimi, Yasamal, Nərimanov rayonlarının ümumi ərazisi Bakının ərazisinin cəmi 4 faizini təşkil edir, amma paytaxt əhalisinin 28 faizi burada toplaşıb. Ona görə də ictimai nəqliyyatın qeyri-effektivliyi tıxac probleminin yaranmasında önəmli yerlərdən birini tutur. Eyni zamanda yeni binaların tikintisi zamanı parkinq yerlərinin nəzərə alınmaması bu problemin yaranmasında önəmli rol oynayır”, - deyə o əlavə edib.

# 2 nəfər vəfat edib

## 44 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 44 yeni yoluxma faktı qeydə alınıb, 50 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 2 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 823 636 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 813 504 nəfər müalicə olunaraq sağalıb, 9 959 nəfər vəfat edib, aktiv xəstə sayı 173 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 005, hazırkı dövrədək isə 7 341 262 test aparılıb.*

# Noyabrın 16-dan 20-dək məktəblərdə payız tətili olacaq

**Noyabrın 16-dan 2022-2023-cü tədris ili üzrə ümumi təhsil müəssisələrində beşgünlük payız tətili başlayacaq.**

Bu barədə Elm və Təhsil Nazirliyindən məlumat verilib. Payız tətili noyabrın 20-dək davam edəcək. Bu tətil ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına da şamil edilir.

*Qeyd edək ki, payız tətili ”Ümumi təhsil müəssisələrində tədris ilinin müddəti”nin təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin 24 fevral 2020-ci il tarixli 66 nömrəli Qərarının tələblərinə uyğun olaraq müəyyən edilib.*

# Xersonun qaytarılması hələ qələbə deyil

## Moskvanın əsas silahlarından biri də qış aylarıdır



**Rusiyanın hərbi qüvvələri Ukraynanın Xerson vilayətinin eyniadlı şəhərini tərk ediblər. Bunun ardından Ukrayna Silahlı Qüvvələri Şumensk rayonu istiqamətindən Xerson şəhərinə daxil olub. Ukrayna hərbçiləri həmçinin Xerson vilayətinin Belozerka, Çaykino və Klapaya yaşayış məntəqələrini də işğaldan azad edib.**

Bu barədə Rusiyanın Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Alyoşka və Qolaya Pristan kimi şəhərləri keçmək istəyənlər üçün bərələr işləyir.

Qeyd edək ki, Rusiya ilə Ukrayna arasında genişmiqyaslı müharibə 2022-ci il fevralın 24-də başlayıb.

Sentyabrın 23-27-də Ukraynanın Rusiya işğalı altında olan Donetsk, Luqansk, Xerson və Zaporojye vilayətlərində "referendum" keçirilib. Vətəndaşlar Rusiyanın tərkibinə daxil olmağa razı olub-olmadıqları barədə suala cavab veriblər. Elan olunan nəticələrə görə, "referendum"da iştirak edənlərin böyük əksəriyyəti həmin vilayətlərin Rusiyaya birləşdirilməsini dəstəkləyib. Rəsmi Kiyev, beynəlxalq təşkilatlar və dünyanın heç bir ölkəsi "referendum"ların nəticəsini tanımayıb. Sentyabrın 30-da Rusiya Prezidenti Vladimir Putin Zaporojye və Xerson vilayətlərinin "suverenliyi"nin və "müstəqilliyi"nin tanınması haqqında fərman imzalayıb. Həmin gün Ukraynanın dörd separatçı bölgəsinin Rusiyaya birləşdirilməsi barədə sazişlər imzalanıb. Mərasim Moskvada Böyük Kreml sarayının Georgiyevsk zalında keçirilib. Sazişləri Rusiya Prezidenti Vladimir Putin, separatçı "Donetsk Xalq Respublikası"nın, "Luqansk Xalq Respublikası"nın, Xerson və Zaporojye vilayətlərinin rəhbərləri imzalayıblar. Rusiya Dövlət Duması və Federasiya Şurasının ratifikasiyasından sonra oktyabrın 5-də V.Putin sazişləri təsdiqləyib.

**Xersondan çıxmasının Rusiyanın imicinə zərbə vuracağını deyən AĞ Partiya sözçüsü, siyasi şərhçi Cavanşir Abbaslı "Şərq"ə açıqlamasında vurğulayıb ki, müharibənin nəticəsi qarşıdakı 3-4 aydan çox asılıdır:** "Son aylarda Ukrayna ordusunun Xersonu almaq cəhdləri artmışdı. Lakin bununla belə həmin ərazinin Kremlin əlindən çıxacağına heç kəs inanmırdı. Doğrudur, artıq Xersondan rus ordusu tamamilə çıxarılıb. Amma düşünürəm ki, burada bizlərə məlum olmayan başqa səbəblər və taktiki gedişlər ola bilər. Çünki Rusiya ilhaq etdiyi heç bir ərazidən belə asanlıqla çıxmazdı. Ola bilər ki, Xersonun verilməsi müqabilində tərəflər bir masa arxasında əyləşsinlər və atəşkəs əldə olunsun".

**Analitik qeyd edib ki, geri dönüş etmək üçün Rusiya sərt qış aylarına hazırlaşır:** "Moskvanın əsas silahlarından biri də qış aylarıdır. Gələn aydan etibarən Avropa şaxtaya bürünəcək. Düzdür, Avropa ölkələrinin qışı keçirmək üçün qaz ehtiyatı görməsi ilə bağlı məlumatlar yayılıb. Amma ki, bu məlumatların nə dərəcədə doğru olub-olmadığını müəyyən etmək tezdir. Qarşıdakı 3-4 ay müharibənin gedişində mühüm rol oynayacaq".

Onun sözlərinə görə, əgər Avropa qaz böhranından qaça bilməyib Moskva ilə müəyyən razılıqlara gəlsə, Rusiya Xersonu yenidən qaytara bilər: "Avropa ölkələrinin mənafeləri hər zaman daha üstün tutulub. Ona görə də Avropa qışda qaz sıxıntısı ilə üzləşsə, Kremlə qarşı sanksiyaları yumşalda bilər. Hazırda gözlər təkcə Rusiyaya yox, həm də İrana yönəlib. Avropa liderlərinin cənub qonşumuzla bağlı açıqlamaları bunu deməyə imkan verir. Lakin müharibənin necə bitəcəyi hələ də bilinmir və Xersonun geri qaytarılması Ukraynanın qələbəsi demək deyil. Ona görə ki, Zaporojye kimi bir vilayət də Kiyevin əlindən çıxıb. Faktiki olaraq Xerson geriyə qaytarılsa, Luqansk, Donetsk və Krım kimi mövzular kölgədə qalacaq. Bu da Rusiyanın manafelərinə xidmət edir".

**Nihat Müzəffər**



# Nazir deputatlarla razılaşır

## Ezamiyyət xərclərinə yenidən baxılmalıdır

**"Gələn ilin büdcəsində ezamiyyət xərcləri üçün ayrılan 22 milyon manat kifayət deyil". Bunu Milli Məclisin dünənki iclasında beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib.**

Komitə sədri təklif edib ki, ezamiyyət xərclərinə yenidən baxılsın: "İkinci Qarabağ müharibəsindən sonra Ermənistan tərəfindən Azərbaycana qarşı beynəlxalq aləmdə cəbhə açılıb. Azərbaycanın mövqelərini daha yaxşı ifadə etmək üçün xaricdə nümayəndələrimiz fəaliyyət göstərirdi. Lakin fəaliyyətimizi artırmaq və daha yüksək səviyyədə təşkil etmək üçün təklif edirəm ki, bununla bağlı xərclərə yenidən baxılsın".

Deputat Elman Nəsirov da hesab edir ki, ezamiyyət xərclərinin artırılmasına ehtiyac var: "Həmçinin Prezidentin qeyd etdiyi kimi türk dünyası təkcə Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrdən ibarət deyil, kənarda yaşayan soydaşlarımız da var. Onların hüquqlarının müdafiəsi məsələsi il bağlı vəsaitin ayrılmasının da büdcədə öz əksini tapması lap yerinə düşərdi".

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli isə bildirib ki, parlamentlə Maliyyə Nazirliyi arasında yaxşı əməkdaşlıq mövcuddur: "Ezamiyyət xərcləri büdcədə kifayət etməyəndə belə bu, işçi qaydada həll edilir. Bizim bu sahədə problemimiz mövcud deyil".

Maliyyə naziri Samir Şərifov isə deyib ki, yeni ezamiyyət normaları hazırlanır: "Ezamiyyə xərclərini təkmilləşdirilməsi üzərində isə iş gedir. Daxildə ezamiyyə normaları ilə bağlı məsələ qaldırılmalıdır. Əvvəlki ezamiyyə xərclərinin qəbul edilməsindən xeyli müddət vaxt keçib. İnflyasiya gedir. Ona görə onlara əlavə baxılmasına ehtiyac var. Biz xarici ölkələrin ezamiyyə normalarına da baxırıq və onlardan bəhrələnirik. Bunun əsasında qərarlar qəbul edilən zaman, ola bilsin, xərclər də artırılsın".

**İsmayıl**

# Trampın kabusu

## Respublikaçılar Partiyasının "qızıl oğlan"ı Ron DeSantis kimdir?







**ABŞ-ın keçmiş prezidenti Donald Tramp Florida ştatının qubernatoru Ron DeSantisi tənqid edib. İki ən yaxşı respublikaçı arasında rəqabət ara seçkilərlə daha da güclənib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Tramp DeSantisi "sadiqliyi olmayan orta qubernator" kimi rişxənd edərək ona xəbərdarlıq edib. Bəs, Florida qubernatoru Ron DeSantis kimdir?

ABŞ-ın keçmiş prezidenti Florida qubernatorunun uğurunu dərk etdikcə ikili arasında rəqabət qızışır. Tramp DeSantisi müvəffəqiyyətini himayəsinə borclu olan "orta" siyasətçi kimi qiymətləndirib.

DeSantis keçən çərşənbə axşamı aralıq seçkilərdə böyük əksəriyyətin səsi ilə yenidən seçilərək Respublikaçılar Partiyasının ən sürətlə yüksələn ulduzu olub.

44 yaşlı siyasətçinin 2024-cü ildə Respublikaçılar Partiyasından prezidentliyə namizəd olacağı da gözlənilir.

Eyni zamanda, "Nyu-York Post" qəzeti DeSantisi keçən çərşənbə günü "DeFuture" adlandıraraq manşetinə çıxarıb. Donald Tramp isə eyni qəzetin manşetlərində özünü "Trumpty Dumpty" (Faydasız Tramp) kimi görüb.

Lakin 76 yaşlı Trampın DeSantisin yoluna çıxma ehtimalı getdikcə artır.

Respublikaçılar Partiyasının bazası ilə böyük populyarlıq qazanan ABŞ-ın keçmiş prezidenti, DeSantis və ya ona meydan oxumağa cəsarət edən hər hansı bir respublikaçı üçün çətin bir rəqib olacağına işarə edir.

Cümə axşamı gecəsi etdiyi çıxışda Tramp Florida qubernatorunu 2017-ci ildə seçkiqabağı kampaniyası zamanı namizədliyini irəli sürərkən ona "ümidsizcəsinə" gələn siyasi uğursuzluq kimi təsvir edib.

"Ronun ictimai rəyi aşağı idi, səsvermənin nəticələri pis idi və pulu yox idi. O, yanıma gəldi və dedi ki, mən onu təsdiq etsəm, qalib gələ bilər. Mən də onun kampaniyasının olduqca pis getdiyini düzəltdim".

Trampın gələn həftə Ağ Evə qayıtmaq üçün öz planını açıqlaması gözlənilir.

Digər tərəfdən, DeSantis Floridada ikinci qələbəsini qeyd edərək, xüsusən də Nümayəndələr Palatasında göstərdiyi performansa görə partiyasından tərif alıb.

Nümayəndələr Palatasına və Senata nəzarət uğrunda yarış bitsə də, səslərin hesablanması hələ də davam edir. Amerikalıların seçkiyə getməsindən iki gün sonra Konqresin ikili palatalarına hansı partiyanın nəzarət edəcəyi bəlli deyil.

DeSantis komanda işinə meyli, rəqiblərini öz tərəfinə çəkmək bacarığı, ciddi və ardıcıl görünüşü ilə respublikaçı müşahidəçilər tərəfindən şanslı fiqur adlandırılır. "Tramp 2.0 - Yeni Model Tramp" adlandırılır.

44 yaşlı Ron DeSantis Yale Universitetində tarix və Harvardda Hüquq fakültələrində təhsil aldıqdan sonra Federal vəkil kimi karyerasına başlayıb.

ABŞ Hərbi Dəniz Qüvvələrində hüquq müşaviri vəzifəsində çalışarkən İraqın Fəllucə şəhərində müharibə cinayətləri törədən ABŞ əsgərlərinin müdafiəsini öz üzərinə götürüb.

O, 2012-ci ildə Nümayəndələr Palatasına, 2018-ci ildə isə Florida ştatının qubernatoru seçilib.

Sərt Respublikaçı ritorikasını populist vədlərlə birləşdirən DeSantis Floridanın yerli siyasətində tez bir zamanda özünə yer qazanıb.

Kampaniyalarında sərhəd təhlükəsizliyinin artırılması, gəlir vergilərinin azaldılması, abort hüququnun məhdudlaşdırılması kimi mövzularda gözləntilərin yaradılması; İqlim böhranı, pandemiya məhdudiyyətləri və səhiyyə məsələlərində "prioritet"dən istifadə etməyən DeSantis Obama administrasiyasına təsirli müqavimət göstərib. Liberal media ilə daim gərginlik yaşayan Ron DeSantis, ekspertlərin fikrincə, bu sahədə Trampın üsullarından istifadə edir və bununla da gündəmdə qalır.

Sorğulara görə, o, Respublikaçılar Partiyasından prezidentliyə namizədliyini açıqlayacağı təqdirdə partiya daxilindən də böyük dəstək alacağı gözlənilir.

Lakin yenidən prezidentlik arzuları ilə tanınan Donald Tramp prezidentliyə gedən yolda mümkün rəqibi De Santisin namizədliyini bəyənmir və bunun Respublikaçılar Partiyasına ziyan vuracağını iddia edir.

**Turan**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;**



# Könüllü gənclər ölkəyə böyük töhfələr verir

## Bu fəaliyyətin təbliği və yayılması humanizm və digər mənəvi dəyərləri gücləndirir

**Ölkəmizin uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə edilməsinə zəmin yaradıb. Bu tərəqqinin geniş vüsət almasında gənclərin də rolu böyükdür. Həyata keçirilən bu siyasət gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün, fiziki və mənəvi sağlamlığının möhkəmləndirilməsi, bir sözlə, hərtərəfli inkişafı üzərində qurulub. Əsası ümummilli lider tərəfindən qoyulmuş Azərbaycan gənclər siyasəti bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir.**

Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında fəal fəaliyyəti ilə seçilir və ictimai-siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində ciddi rol oynayır. Dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin vacib qüvvəsinə çevrilib. Azərbaycan dövlətinin gənclər siyasətinin əsas məqsədi intellektual, fiziki cəhətdən sağlam və vətənpərvər gənclər yetişdirməkdir. Ulu öndər Heydər Əliyev ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlar həyata keçirib. Gəncliyin inkişafına dəstək dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmək üçün 1996-cı ildə Azərbaycan gənclərinin ilk forumu keçirildi. Ulu öndər Heydər Əliyevin 1997-ci ildə imzaladığı fərmanla fevralın 2-si ölkəmizdə Gənclər Günü elan olundu. 2002-ci ildə isə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi dövlətin gənclərə göstərdiyi diqqət və qayğının daha bir göstəricisidir. Bu gün də gənclər siyasəti Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsində gənclərə böyük inam bəsləyir, onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir. Prezident İlham Əliyev tərəfindən gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci ildə "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nın (2005-2009-cu illər) təsdiqi gənclərə dövlət qayğısının artırılmasının göstəricisidir. Həmin sərəncamda gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri bütövlükdə xalqımızın milli mənafelərinin inkişafına yönəldilərək, gəncləri daha təşəbbüskar və fəal olmağa təşviq edib. Məhz bu siyasət sayəsində ölkəmizdə yüksək intellektual bacarıqlara, ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərmək əzminə sahib olan gənclər formalaşıb. Azərbaycan gənci istər siyasət, istər iqtisadiyyat, istər mədəniyyət, istər idman, istərsə də hər hansı sahədə özünü doğrulda bilir. Uğurlara imza atır, üzərinə götürdüyü istənilən vəzifənin öhdəsindən layiqincə gəlir. Azərbaycan gənci ölkəmizin bayrağını idman yarışlarında, beynəlxalq miqyaslı tədbirlərdə, platformalarda göyə ucaldır, ölkəmizi layiqincə təmsil edir. Gənclərimiz üzərlərinə düşən öhdəliyi dərindən dərk edir, bunun öhdəsindən də gələ bilir və bunu dəfələrlə təsdiq etdiyi də göz önündədir. Azərbaycan gəncliyi bütün sahələrdə öz iştirakı, fəallığı ilə seçilir və artıq gənclərimiz irimiqyaslı layihələrin icrasından tutmuş, idarəetməyə qədər bütün proseslərdə yaxından iştirak edir. Hətta ölkəmizin gəncləri ictimai proseslərdə yaxından iştirak edir və diqqətə çatdıraq ki, bizdə könüllülük hərəkatı da, onun fəaliyyəti də xüsusilə qeyd olunmalıdır. Bütün bunlar isə ondan xəbər verir ki, gənclərimizin, Azərbaycan gəncliyinin vətənpərvərlik ruhu, eləcə də vətəndaşlıq mövqeyi möhkəmlənib və günü-gündən də möhkəmlənməkdədir.

Azərbaycan gəncləri vətənpərvər ruhdadır və imza atılan bütün uğurlar bu ruhun, məhz vətənpərvərlik ruhunun məntiqi nəticəsidir. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib" deyən cənab Prezident İlham Əliyev özü də Azərbaycan gənclərinin vətənpərvərlik ruhunu hər zaman qiymətləndirib. Xüsusilə, 44 günlük Vətən müharibəsində gənclərimizin necə vətənpərvər olduğu, hansı milli ruha sahib olduğu özünü göstərdi. Bunu təkcə Azərbaycan cəmiyyəti deyil, bütün dünya da gördü. Gördü ki, Azərbaycan gənci bir qarış torpağını düşmənə güzəştə getməz və bunun üçün canından, qanından keçməyə də hər zaman hazırdır. Sözsüz ki, bu qələbədə bütün yaş qruplarından olan vətəndaşlarımızın payı var. Hər kəs bu qələbəmiz üçün, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təminatı üçün, tarixi ədalətin bərpası üçün bütün səy və bacarıqlarını əsirgəmədi. Amma onu da qeyd etmək lazımdır ki, döyüşlər zamanı canından, qanından keçən, bu yolda şəhid olmağı hər şeydən üstün tutan gənclərimiz çoxluq təşkil edirdi. Gənclərimizin, Azərbaycan gənclərinin milli maraqlarımız, dövlətçilik maraqları uğrunda ən ali hisslər özünü bir daha təsdiq etdi. Təsdiq etdi ki, Azərbaycan gəncləri milli ruhda, vətənpərvər ruhdadır və dövlətçiliyimizin, milli maraqlarımızın, haqq və hüquqlarımızın keşiyindədir. Bu isə həm də ondan xəbər verir ki, bundan sonra da milli maraqlarımızı, dövlətçiliyimizi, ərazi bütövlüyümüzü, ümumilikdə suverenliyimizi qoruyacaq gənclərimiz var. Gənclərimizin milli ruhu, vətənpərvərlik ruhu onu deməyə əsas verir ki, gənclərimizin bu ruhda olması, əzm və iradəsi gələcəyimizin əmin əllərdə olduğunun təsdiqləyir. Şəhidlik zirvəsi ən ali zirvədir və bu zirvəni qazanan gənclərimiz bizim qürurumuz, xaqımızın fəxridir və onların xatirəsi əbədi olaraq yaddaşımızda yaşayacaq, ehtiramla yad olunacaq. Öz vətəninin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, xalqımızın haqq işi uğrunda mübarizəsi üçün canından keçməyə hazır olan gənclik, milli ruhda, vətənpərvərlik ruhunda olan Azərbaycan gəncləri öz məsuliyyətini, üzərinə düşən öhdəliyi dərk etdiyi görünür və əminliyimiz artır ki, Azərbaycan gələcəyə doğru inamla addımlayır.

Noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşada təşkil olunan tədbirdə çıxış edərkən bu məqama xüsusi toxundu. Dövlət başçısı bəyan etdi ki, bizim vətənpərvərlik məsələləri ilə bağlı çox fəal siyasətimiz olub. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək Prezident kimi onun siyasətinin əsas istiqamətlərindən biri idi: "Gənclərimiz vətənpərvərdir, Vətənə bağlıdır və İkinci Qarabağ müharibəsi bunu göstərdi. Bir daha demək istəyirəm, heç vaxt Qarabağı görməyən gənclərimiz Qarabağ uğrunda ölümə getməyə hazır idilər və ölümə gedirdilər, cəmiyyətdə milli birlik, milli həmrəylik ideyaları üstünlük təşkil etdi. Eyni zamanda, Azərbaycanda yaşayan bütün xalqlar mənim apardığım siyasət nəticəsində daha sıx birləşdilər. Mən dəfələrlə deyirdim, bu gün də deyirəm, biz böyük ailəyik. Azərbaycanda yaşayan bütün xalqlar bir böyük ailənin üzvləridir. Yaxşı günlərdə, ağır günlərdə bir yerdəyik və bu birlik dünya miqyasında nadir dəyərdir. Baxın, biz başqa ölkələrin timsalında milli, dini, etnik zəmində narazılıq, toqquşma, inamsızlıq görürük. Azərbaycanda nə görürük - birlik, qardaşlıq, dostluq! Azərbaycanda yaşayan bütün xalqlar Qarabağ uğrunda ölümə gedirdilər. Bu bizim böyük dəyərimizdir. Biz bunu, bu dəyəri daim qoruyub saxlamalıyıq, gücləndirməliyik. İkinci Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyi, milli birliyi daha da gücləndirdi, ölkəmizi gücləndirdi. Biz bu ağır yükü çiynimizdən atdıq, bu damğanı boynumuzdan atdıq. Biz indi başımızı dik tutub istənilən tədbirdə, istənilən formatda sözümüzü deyirik. Biz üzümüz ağ, alnımız açıq, müzəffər xalq kimi yaşayırıq. Buna görə sizə və sizin kimi on minlərlə hərbçiyə borcluyuq. Azərbaycan xalqı bunu bilir və yaxşı qiymətləndirir".

**Gənc fəal, YAP Səbail rayon təşkilatı gənclər birliyinin sədr müavini Fuad Heydər "Şərq"ə deyib ki, Prezident, Ali Baş Komandanın apadığı siyasətlərdən ən başlıcası gəncləşmə siyasətidir. F.Heydər bildirib ki, ulu öndərin və cənab Prezidentin dövründə Azərbaycan gəncliyi vətənpərvər ruhda, milli-mənəvi dəyərlərə sadiq olaraq yetişdirilib:** "44 günlük Vətən müharibəsində də bunu bariz şəkildə gördük. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinin əsas hərəkət qüvvəsi gənclər idi. Vətən müharibəsindəki Qələbə həm də gənclərlə bağlı 25 illik dövrün məntiqi yekunu idi. Vətən müharibəsində gənclərimizin yüksək fiziki və mənəvi hazırlığı və vətənpərvərlik hissi əməldə sübut olundu. Ancaq Qələbəmizdə gənclərlə bağlı dövlət siyasətinin rolu təkcə fiziki və mənəvi hazırlıq və vətənpərvərlik işi ilə məhdudlaşmır. Əlbəttə ki, Şuşanın işğaldan azad edilməsi onların vətənpərvərliyinin, yüksək mənəvi və fiziki hazırlığının parlaq nümayişi oldu. Həmçinin burada 21-ci əsrin müharibəsi kimi yüksək texnologiyalar və süni intellektə əsaslanan döyüş vasitələri mühüm rol oynayır. Həmin texnologiya və döyüş vasitələrinin düzgün idarə edilməsi yüksək peşəkarlıq və təhsil tələb edir. Digər tərəfdən isə yüksək təhsilli gənc nəslin yetişməsi Azərbaycan həqiqətlərinin, o cümlədən Qarabağ müharibəsi ilə bağlı mövqeyimizin dünyaya çatdırılması, habelə ölkəmizin beynəlxalq səviyyədə yumşaq gücünün formalaşması üçün zəruridir. Bu isə gənclərimizin yüksək intellektual və təhsil səviyyəsinə dəlalət edir".

*F.Heydər bəyan edib ki, ölkəmizdə gənclər siyasətindən danışarkən könüllülər hərəkatının inkişafını və geniş vüsət almasını qeyd etməmək olmaz:* "Gənclər arasında könüllülük fəaliyyətinin təbliği və yayılması onlarda humanizm və digər mənəvi dəyərləri gücləndirir. Bu fəaliyyət əmək bazarına yeni çıxan gənclərə çox vacib bir təcrübə də qazandırır. Könüllülər ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə, o cümlədən idman və musiqi yarışlarına mühüm töhfə veriblər. Beynəlxalq tədbirlərdə iştirak bir tərəfdən onlarda fərqli mədəniyyətlərə mənsub olan insanlarla ünsiyyət vərdişləri aşılayır. Digər tərəfdən isə Azərbaycan xalqının çoxəsrlik tolerantlıq xüsusiyyətlərini əcnəbilərə nümayiş etdirir. Tolerantlıq isə ölkəmizdə dövlət siyasəti elan edilmiş multikulturalizmin əsasında dayanır. Yeri gəlmişkən, multikulturalizm və tolerantlıq Azərbaycanda gənclər arasında xüsusən təbliğ olunur. Bir sözlə, Azərbaycanda cənab İlham Əliyevin rəhbərliyi altında çox düzgün və uğurlu gənclər siyasəti həyata keçirilir. Ölkə gəncləri cənab Prezidentimizi sevir və dəstəkləyir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Gələcəkdə Zirvə görüşü Şuşada keçiriləcək

## Qarabağ türk dünyasının mərkəzinə çevrilir



**"Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparır. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlamışıq".**

Bu sözləri Prezident İlham Əliyev Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxış edərkən deyib.

Onun sözlərinə görə, bu prosesdə Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər:

"Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib. Şuşada, Füzulidə, Zəngilanda, Cəbrayılda olub.

Mən digər türk dövlətlərinin başçılarını da Qarabağ və Şərqi Zəngəzura dəvət edirəm. Fürsətdən istifadə edərək, mən işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikiləcək məktəbə və Qazaxıstan tərəfindən tikiləcək yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm".

**Vətən müharibəsindən sonra**

***Elnur Eltürk: "Prezident türk dünyasının diqqətini bura yönəldir və bu gün Azərbaycan türk birliyinin inteqrasiyasında mərkəz rolunu oynayır"***

**Azərbaycanın türk dünyasında nüfuzunun artdığını deyən Türk Ağsaqqalları Birliyinin sədr müavini, "Vikipediya" üzrə mütəxəssis, diaspor üzrə araşdırmaçı-ekspert Elnur Eltürk "Şərq"ə vurğulayıb ki, proseslər türk birliyi inteqrasiyasını sürətləndirib:** "Mərkəzi Asiya türk dövlətlərində ölkəmizə qarşı böyük sevgini, diqqəti müşahidə edirik. Artıq diqqət Azərbaycana yönəlib və türk insanında özünəinam hissi güclənib. Bundan sonra isə Qarabağın quruculuğunda Türk dövlətləri fəal iştirak etsələr, daha yaxşı olar. Doğrudur, qardaş Türkiyə prosesdə fəal iştirak edir. Özbəkistanın Füzulidə bir məktəb tikməsi isə iki qardaş ölkə arasında münasibətlərin inkişafında simvol olacaq".

Ekspert əlavə edib ki, Prezident İlham Əliyevin türk dövlət liderlərini Qarabağa dəvət etməsi, buranın türk dünyasının mərkəzinə çevrilməsi siyasətinə hesablanıb: "Bu gün Azərbaycan Türk birliyinin inteqrasiyasında mərkəz rolunu oynayır. Prezident bununla bağlı mükəmməl siyasi kurs yürüdür. Ola bilər ki, gələcəkdə zirvə görüşü Qarabağda, xüsusilə, Şuşada təşkil olunsun.

Bu səbəblə də Şuşada beynəlxalq tədbirlərin keçirilməsi üçün hər cür imkanlar yaradılır. Bu gün bizim üçün ən vacib məqam türk dövlətlərinin Qarabağın quruculuğuna öz dəstəyini göstərməsidir.

Qarşıda türk dövlətlərini təmsil edən iş adamlarının Qarabağa yatırım qoymaları, birliyin güclənməsinə böyük təkan ola bilər. Nəzərə alaq ki, Qarabağın münbit şəraiti var".

**Nihat Müzəffər**

## Şuşada arxeoloji qazıntıların aparılması proseduru müəyyənləşib

**Şuşa şəhərinin ərazisində abidələrin öyrənilməsi və arxeoloji qazıntıların aparılması Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin razılığı ilə həyata keçiriləcək.**

Bununla bağlı "Azərbaycan Respublikasının ərazisində arxeoloji qazıntılar aparan və arxeoloji mədəni sərvətlərin tədqiqi məqsədi ilə onlarla təmasda elmi tədqiqat işlərini yerinə yetirən şəxs tərəfindən aparılmış tədqiqat işləri barədə hesabat verilməsi Qaydası"na yeni - 1.2-1-ci bənd əlavə edilib. Belə razılıq verilərkən Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınacaq.

## Məktəbdaxili qiymətləndirmələr rəqəmsallaşdırılır



**Ötən tədris ilindən pilot olaraq tətbiqinə başlanılmış məktəbdaxili qiymətləndirmənin rəqəmsallaşdırılması prosesi davam edir. 2021-2022-ci tədris ilindən fərqli olaraq cari tədris ilində kiçik summativ qiymətləndirmələrin də rəqəmsal təşkilinə başlanılıb.**

Bu barədə APA-ya Elm və Təhsil Nazirliyindən xəbər verilib. Bildirilib ki, rəqəmsal məktəbdaxili qiymətləndirmə şagirdlərin rəqəmsal bilik və bacarıqlarının artırılması, qiymətləndirmə vasitələrinin hazırlanmasında və yoxlanılmasında vaxta qənaət, texnologiyanın təklif etdiyi yeni məzmun və formalı qiymətləndirmə üsullarından istifadə və kağız sərfiyyatının minimuma endirilməsi məqsədilə həyata keçirilir.

*Qeyd edək ki, ümumi təhsil müəssisələri məktəbdaxili qiymətləndirməni kompüter avadanlıqları və internet təminatı imkan verdiyi təqdirdə rəqəmsallaşdıra bilərlər. Sözügedən proseslə bağlı ölkə üzrə bütün ümumi təhsil müəssisələrinə müvafiq təlimatlar göndərilib.*



## Şəkidə köhnə doğum evinin ərazisindən körpə uşaq sümükləri aşkarlanıb

### AMEA-nın əməkdaşları həmin bölgəyə ezam olunub

**Şəki şəhər "Yuxarı Baş" Milli Tarix- Memarlıq qoruğu ərazisində yerləşən, hazırda "şəbəkə sexi" kimi fəaliyyət göstərən tarixi abidədə Dövlət Turizm Agentliyi tərəfindən aparılan bərpa-quruculuq işləri zamanı binanın daxilində beton döşəmə təmir edilərkən 80-120 sm dərinlikdə azyaşlı insanlara aid skeletlər aşkar edilib.**

Bu barədə "Report"a AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutundan məlumat verilib.

Bildirilib ki, daxil olan məlumat əsasında institutun əməkdaşları həmin bölgəyə ezam olunub. İlkin baxış zamanı ərazinin GPS koordinatları 411215N - 47 1146 E götürülüb.

Sonra binanın ətrafında qazılmış yerlərə baxış keçirilib. Ətrafda heç bir maddi mədəniyyət nümunələrinə rast gəlinməyib. Bir iki yerdə saxsıdan hazırlanmış su tüngləri aşkarlanıb. Binanın şimal - qərb hissəsində, çöl tərəfdən divarın altından arka tipli çıxış qeydə alınıb: "Buradan qərb tərəfdə yerləşən beton hovuza çıxış var. Hovuzun kənarında olan quyunun içərisi çirkab suları ilə dolu olub. Hovuzla bina daxilində olan arka tipli çıxış bir birilə əlaqəlidir. Döşəmədə hər tərəfdən iri dairəvi dəliklər vardır. Ehtimal olunur ki, burada meyitləri yuyarkən su hovuza axıdılıb. Döşəmə sökülərkən betonun alt hissəsində kül qatı və yanmış insan sümükləri aşkarlanıb. Qazıntı sahəsindən iki ədəd tibbi ələk, iki ədəd daraq aşkarlanıb. İnsan qalıqları əsasən körpə uşağa aid sümüklərdən ibarətdir. Belə görünür ki, burada həmçinin kremasiya (ölüyandırma) işləri də aparılıb. Bu yerin yaxın zamanlaradək doğum evi olduğu söylənilir. Ehtimal olunur ki, doğuş vaxtı və ya bir müddət sonra xəstəlikdən, digər səbəblərdən tələf olan uşaqlar burada yuyulub dəfn olunublar".

Dövlət Turizm Agentliyinin əməkdaşları ilə birlikdə yerli əhali ilə söhbət apararkən məlum oldu ki, bina uzun müddət - sovetlər dövründə "ölüxana" kimi fəaliyyət göstərib. Hal hazırda ərazidən aşkar edilən skeletlər kriminoloqlar tərəfindən tədqiq olunur.

# Atalıq məzuniyyətinin verilməsi mütləqdir

## Bunun evin xanımına və doğulacaq uşağa faydası çox olacaq



**Əhməd Qəşəmoğlu: "Əksər vaxt xəstəxanadan çıxan qadının həyat yoldaşından başqa köməkçisi olmur"**

**Azərbaycanda atalıq məzuniyyəti ilə bağlı məsələ aktualdır. Artıq bununla bağlı qanunvericiliyə dəyişiklik layihəsi hazırlanır və üst qurumlarla razılaşdırılmalıdır.**

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə, Mədəniyyət komitələrinin birgə iclasında 2023-cü ilin dövlət büdcəsinin müzakirələri zamanı qeyd edib ki, layihə razılaşdırıldıqdan sonra Milli Məclisə təqdim ediləcək.

Maraqlıdır, artıq dünyada illərdir ki, tətbiq olunan bu qanunun Azərbaycanda da qəbul edilməsini cəmiyyət necə qarşılayır? Bu qanun qüvvəyə minsə, atalıq məzuniyyətindən istifadə edənlər olacaqmı?

Qeyd edək ki, Fransada 16 həftə olan ödənişli doğum icazəsi, üçüncü uşaqdan sonra 26 həftəyə qədər uzana bilir. Almaniyada valideynlərə verilən ödənişli doğum icazəsi 14 həftədir. Ödənişsiz icazə müddəti isə həm ana, həm də ata üçün uşaq 3 yaşına çatana qədər uzadıla bilir. Norveçdə də 14 həftəlik olan atalıq məzuniyyəti məcburidir.

Ekspertlərin fikrincə, atalara məzuniyyət verilməsi qadına və doğulacaq körpəyə müsbət təsir edə bilər.

**Sözügedən qanun layihəsi ilə bağlı "Şərq"ə açıqlama verən sosioloq, professor Əhməd Qəşəmoğlunun sözlərinə görə, Azərbaycanda belə bir qanunun qəbulu reallığın tələbiylə aktual bir məsələyə çevrilib:** "Cəmiyyətimiz günü-gündən mürəkkəbləşir, münasibətlər dəyişir, insanların istər ailədaxili, istər işdə bu münasibətləri fərqli bir yön alır və buna görə də bir çox məsələlərə yenidən baxılmasına ehtiyac yaranır. Bütün bu dəyişikliklərin fonunda "atalıq məzuniyyəti"nə də ehtiyac yaranıb. Əvvəllər Azərbaycan ailələri böyük olurdu.

Qayınanalar, bibilər, xalalar uşağı olan qadına kömək edirdi. Bu zaman da atanın köməyinə ehtiyac olmurdu. İndi isə ailələr "cırtdan"laşıb. Əvvəlki kimi qohum-qonşular da bir-birinə kömək etmir. Əksər vaxt xəstəxanadan çıxan qadının həyat yoldaşından başqa köməkçisi olmur. Bu baxımdan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış yeni qanun layihəsinin qəbul olunacağına ümid edirəm. Təbii ki, evdə yoldaşının köməyi olan kişilər bu məzuniyyətdən istifadə etməyəcək. Ehtiyacı olan kişilər isə bu qanundan faydalanacaq".

Sosioloqun sözlərinə görə, Azərbaycanda bu istiqamətdə olan mövcud qanunların təkmilləşdirilməsi üçün bir neçə onillik lazımdır.

**Şəymən**

# Amandı, uşaqları uzaq tutun!

## Təkcə siçan dərmanı deyil, təzyiq, şəkər dərmanlarını içib zəhərlənən o qədər uşaqlar olur ki...

**İki gün əvvəl Sabunçu rayonunun Ramana qəsəbəsində 5 və 2 yaşlı iki uşaq siçan dərmanından zəhərləniblər. Qardaşlar xəstəxanaya çatdırılsa da vəfat ediblər.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, faktla bağlı Sabunçu Rayon Prokurorluğunda araşdırma aparılır.

Həmin uşaqlar siçan dərmanını "Jelibon" bilərək yeyiblər və yerə yıxılıblar. Şahidlərin sözlərinə görə, ailənin iki uşaqdan başqa övladları olmayıb. Ev yiyəsi həmin dərmanı siçanları məhv etmək üçün istifadə edirmiş.

Faciəvi şəkildə ölən uşaqların babası Akif Pirəliyev ARB kanalına müsahibəsində bildirib ki, 2 yaşlı Onur və 5 yaşlı Akif bir neçə dəqiqə ərzində zəhərlənərək vəfat ediblər: "Hadisə noyabrın 8-də, axşam saat 7 radələrində baş verib. Mən və uşaqların atası işdə olmuşuq, nənəsi qonaqlıqda olub. Uşaqlar və anası evdə olub. Hadisə də uşaqların anası bir stəkan çay içəndə baş verib. Mətbəxdə oynayarkən siyirmədə siçan zəhərini marmelad bilib yeyiblər. Bundan sonra uşaqlara yuxu gəlib və analarına yatmaq istədiklərini deyiblər. Gəlinim də onları yataq otağına apararaq yerlərinə uzandırıb. Təxminən 15 dəqiqə sonra yataq otağına qayıtdıqda uşaqlardan birinin ağzından köpük, o birinin ağzından qan gəldiyini görüb. İkisinin də bədəni artıq soyuyubmuş, çölə çıxıb haray salıb, uşaqları xəstəxanaya çatdırsalar da, artıq vəfat etdikləri məlum olub".

Mütəxəssislərin fikrincə, tablet şəklində konfetlər, "jelibon"a bənzəyən şirin, dadlı vitaminləri uşaqlara vermək təhlükəlidir. Çünki bu sonradan onlara zərərli digər dərmanları dadlı sayaraq yemələrinə və sonda



*Pediatr: "Təkrar-təkrar deyirəm, azyaşlı uşağı olan hər bir ana bu kimi xırdalıqları fikirləşməlidir. Təkcə böyüklərin yox, uşaqların özlərinə aid olan dərmanları da evin ən hündür yerində saxlamaq lazımdır"*

da faciələrə səbəb olur. Valideynlər mütləq evdəki dərmanları, yeyilə, udula biləcək bütün zərərli vasitələri uşaqların əlləri çaytmayan yerlərə qoymalıdır. Xüsusən də tək dozada uşağa ölümcül ola biləcək təzyiq dərmanı, şəkər dərmanı, psixotrop dərmanları, xlorlu su, sirkə, çamaşır sularını uşaqlardan uzaq tutmaq lazımdır.

Pediatr Vaqif Qarayevin "Şərq"ə açıqlamasına görə, siçan dərmanı həddindən artıq ağır toksiki təsirə malik zəhərdir. Qısa müddətdə öldürücü təsiri var. Çox az dozada qəbul edildikdə və vaxtında müdaxilə olunduqda xilas varianti mümkündür: "Ama körpələrin orqanizmi zəif olduğu üçün az dozada belə qəbulu bütün daxili orqanları parçalayır. Ümumiyyətlə, siçan dərmanı orqanizmə daxil olan kimi zədələmədiyi orqan qalmır, ən çox da qanı zəhərləyir. Anında tibbi yardım göstərilsə, sağalma ehtimalı da var. Amma konkret hadisədən danışsaq, bu uşaqlar yaşadığı qəsəbədən Toksiki mərkəzə gətirilənə qədər zəhər orda öz işini görəcəkdi. Hətta belə hallarda təsadüf nəticəsində sağ qalan insanlarda müəyyən fəsadlar qalır. Azyaşlı uşaqlar çevrələrində olan hər bir şeyi oyuncaq hesab edirlər. Dərmanlar, eləcə də digər kimyəvi və zərərli məhsullar da buraya daxildir. Uşaqları zərərli vasitələrdən uzaq tutmaq üçün maksimum onlara nəzarət və diqqət edilməlidir. Hər nə qədər dərmanları uşaqların əllərinin çata bilmədiyi yerdə saxlasaq da, diqqət və nəzarət çox önəmlidir. Parfümeriya məmulatları, ayaqqabı kremi, müxtəlif batareyalar, gündəlik qəbul edilən dərmanlar, toksiki tərkibli mayelər və s. uşaqlardan uzaq olmalıdır! Xüsusən də körpəsi olan ailə bu kimi xırdalıqlara fikir verməlidir. Nənəbabasının təzyiq, şəkər dərmanlarını içib zəhərlənən o qədər uşaqlar olur ki. Onlar dərmanın nə demək olduğunu bilmədiyi üçün harda tapsalar ovuclarına doldurub içirlər.

Təkrar-təkrar deyirəm, azyaşlı uşağı olan hər bir ana bu kimi xırdalıqları fikirləşməlidir. Təkcə böyüklərin yox, uşaqların özlərinə aid olan dərmanları da evin ən hündür yerində saxlamaq lazımdır. Çünki dərman preparatları özü müəyyən dozada zəhərdir, müəyyən dozada dərman vasitəsidir. Bəzən uşaq səhvən normadan çox dərman içə bilir və bu zaman zəhərlənmə hadisəsi baş verir. Uşaqlar riskləri düzgün qiymətləndirə bilmirlər. Onlar dərmanların əlvan rənglərinə, parlaq olmasına maraq göstərirlər".

**Şəymən**



### Bakıda mağazadan 31 min manatlıq "Iphone" oğurlanıb

Araşdırma zamanı onun Abşeron rayonunda yaşayan Zakir Fərəcov olduğu məlum olub

**Bakının Nizami rayonunda Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsi tərəfindən qorunan mobil telefon və məişət əşyalarının satıldığı mağazadan oğurluq edilib.**

DİN-in mətbuat xidmətindən verilən xəbərə görə, xüsusi texniki mühafizə vasitələri ilə qorunan həmin mağazadan ötən gecə Baş İdarənin Mərkəzləşdirilmiş Mühafizə Mərkəzinə həyəcan siqnalı daxil olub. Dərhal ərazi üzrə Nizami Rayon Mühafizə İdarəsinin əməkdaşları hadisə yerinə yollanıblar. Obyektin giriş qapısının qırıldığını müəyyən edən mühafizə polisləri "isti" izlərlə oğurluqda şübhəli bilinən şəxsi hadisə yerinin yaxınlığında saxlamağa nail olublar. Həmin şəxsin üzərinə baxış zamanı 13 ədəd ümumi dəyəri 31 min manat olan "iphone" markalı mobil telefon aşkar edilib. Mühafizə Polisləri tərəfindən həmin şəxs Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsinə təhvil verilib. Şöbədə araşdırma aparılan zaman onun Abşeron rayonunda yaşayan Zakir Fərəcov olduğu məlum olub. Bu şəxsin digər cinayətlərdə əlinin olub-olmadığının müəyyən edilməsi istiqamətində araşdırmalar davam etdirilir.

# 2023-cü ildə bürclər nə vəd edir?

## Bu ildə oxatanların şansları daha çox gətirəcək

**İnsanlar yeni ili həmişə ümidlə və bir az ehtiyatla gözləyirlər. Hər il olduğu kimi bu ilin sonunda da astroloqlar yeni ilin uğurlu bürclərini açıqlayıb. 2023-cü il bir çoxları üçün dəyişiklik ili olacaq.**

2023-cü il Dovşan ilidir. Astroloqlar 2023-cü ilin olduqca sakit və ahəngdar olacağını proqnozlaşdırır. Qara dovşan özü nəsillərinə qayğı göstərən mehriban, mülayim, ahəngdar bir varlıqdır.

Astroloqların hesablamalarına görə, bu il şansları ən çox gətirəcək bürclər sırasında hava ünsürlü bürclər daha çox şanslıdır.

Hesablamalara görə, 2023-cü ilin ən şanslıları oxatanlardır. Bu il heç bir bürc oxatan qədər şanslı ola bilməyəcək. Oxatan - ilin ən xoşbəxti olacaq, sevincli xəbərlər alacaq və çoxlu pul qazanacaq. Bu il həm sevgidə, həm də karyerada gülümsəyəcəklər. Həyatın monotonluğundan yorulanlar üçün çox əla bir il gəlir.

Ən emosional bürclərdən olan Xərçənglər 2022-ci ilin sonunda artıq bundan bezəcək, həssaslığı unudacaq.

Daim pis niyyətli insanlarla qarşılaşmaqdan, özlərinə vaxt ayıra bilməməkdən şikayətlənirlər. Bu artıq tarix olacaq. 2023-cü il karyerada böyük yenilik və müsbət dinamikaya doğru irəliləyişə işarə edir. Bu il bir çoxunuz sabit və müsbət reputasiya qazana biləcəyiniz bir iş tapa biləcəksiniz. Sevgi istəyənlər üçün ilin ikinci yarısı sürprizlərlə dolu olacaq.



2023-cü il Dolça dövrüdür və hava ünsürlü bürclər bu dövrdə mütləq öz yerini tapacaq. Nəhayət, 2023-cü ildə ulduzların Dolça ilə müharibəsi başa çatacaq.

**Dolça** bürcü yeni ildən etibarən Saturnun qəzəbindən qurtulacaq. Sanki yenidən doğulacaqlar. Həyatda yaxşı şeylərin olduğuna da şahid olacaqlar. Uğur onları təqib edəcək və buraxmayacaq. Xüsusilə səhhətlərində də hər şey qaydasına düşəcək. O qədər həyəcanlı bir sevgiyə başlaya bilərlər ki, hətta özləri də inanmayacaq.

Uzun müddətdir ki, Əkizlər bürcünün bəxti gətirmirdi. Bununla belə, yadda saxlamaq lazımdır ki, Əkizlər bürcü də bu il şanslı olanlar sırasındadır. İl boyu yaradıcı işlərlə məşğul ola və karyeranızda irəli gedə bilərsiniz. Sağlamlıq baxımından fiziki və zehni olaraq sizin üçün nəyin yaxşı olacağını kəşf edəcəksiniz. Sevgidə də şansınız yüksəkdir. Flörtlər qapınızdan əskik olmayacaq.

**Qoç** bürcündə sevgi münasibətləri üçün yaxşı perspektivlər olacaq. Ailə işləri aprel ayından sonra gözəl bir şəkil təqdim edəcək. İş adamlarını yaxşı gəlirlər gözləyir. Maliyyə vəziyyəti əladır. Sağlamlıq perspektivləri ilin ikinci yarısında parlaqdır. Xaricə səfərlər göstərilir.

**Buğalar** peşəkar karyerasında əla irəliləyiş görəcəklər. Yeni investisiyalar üçün kifayət qədər pul olacaq. İl irəlilədikcə sevgi münasibətləri yaxşılaşacaq. Sosial həyat əyləncəli olacaq. Səhhətində kiçik problemlər yaranma ehtimalı olsa da, səyahət perspektivləri yüksəkdir.

**Şir** bürcündə doğulanlar üçün evlilik həyatı əyləncəli və ahəngdar olacaq. Uşaqlar akademik fəaliyyətlərdə yaxşı irəliləyiş əldə edəcəklər. Karyera artımı fenomenal olacaq. Maliyyə əlamətdar olacaq. Sağlamlıq perspektivləri inanılmazdır. Biznes təşviqi üçün səyahətlər kartlardadır.

**Qız** bürcündən olan subay insanlar evlənəcək. Ailə mühitində sülh və harmoniya hökm sürəcək. İlk üç ayda karyera yüksəlişi yaxşı olacaq. Pul axını davamlı olacaq. Sağlamlıq perspektivləri gözəldir. Həm uzun, həm də qısa səfərlər olacaq.

**Tərəzilər** üçün xaricə səfərlər gözlənilir. Sağlamlıq perspektivləri orta səviyyədədir. Tərəfdaşlıq təşəbbüsləri yaxşı gəlir gətirəcək. Maliyyə perspektivləri orta səviyyədədir. Ailədə nikahlar göstərilir. Ailə həyatı şənliklərlə zəngin olacaq.

Subay Əqrəblər sevgi münasibətlərinə girəcəklər. Uşaqlar qabaqcıl təhsil almaq üçün tanınmış institutlara qəbul olunacaqlar. Tərəfdaşlıq biznesləri yaxşı gəlirlər verəcəkdir. Maliyyə xoş olacaq. Yaxşı sağlamlıq göstərilir. Səyahət perspektivləri orta səviyyədədir.

**Oxatanlar** üçün karyera yüksəlişi müstəsna olacaq. Maliyyə çox olacaq. Sağlamlıq narahatlıq mənbəyi olacaq. Biznes tərəfdaşlıqları çətinliklərlə üzləşəcək. Münasibətlər dəyişkənliyə məruz qalır. Səyahətlər güclənəcək.

**Oğlaq** bürcünün həyatında əhəmiyyətli dəyişikliklər olacaq. Ailə həyatı ahəngdar olacaq və subay insanlar xoş münasibətlərə girəcəklər. Ailə üzvləri arasında koordinasiya əla olacaq. Uşaqlar dərslərində fərqlənəcəklər.

Karyera perspektivləri orta səviyyədədir. Maliyyə həm qənaət, həm də investisiyalar üçün kifayət edəcək. Fiziki və ruhi sağlamlıq mükəmməl olacaq. Peşəkar məqsədlər üçün həm uzun, həm də qısa səfərlər olacaq.

**Balıqlar** üçün ümumi perspektivlər mülayimdir. Sevgi münasibətləri il boyu ahəngdar görünür. Maliyyə müxtəlif manelərə baxmayaraq adekvat olacaq. Sağlamlıq perspektivləri ürəkaçan deyil. Həm zövq, həm də macəra dolu səyahətlər gözlənilir.

**Şəymən**

**Aliyeva Elnurə,**
**"Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun kiçik elmi işçisi**



# Damcılı mağarası

## Qazax rayonunda dünya əhəmiyyətli abidələr yerləşir

**Tarixi abidələrin qədimliyinə və zənginliyinə görə Qazax rayonu xüsusi yer tutur. Və abidə zənginliyi baxımından bu rayonun ərazisi digər bölgələrlə müqayisəedilməzdir. Qazax ərazisində qazıntı işləri aparan arxeoloqlarımızın dediklərinə görə, burada tapılan bəzi abidələrin müqabili bütün şərqdə yoxdur. Bu abidələr fonunda bəşəriyyət bütün təkamül prosesi aydın görünür. Mən sizə Qazax rayonunda yerləşən 3 dünya əhəmiyyətli abidələr haqqında məlumat vermək istərdim. Bunlardan birincisi Damcılı mağara düşərgəsidir.**

Dünya əhəmiyyətli Damcılı mağarası Qazax rayonundakı Avey dağının cənub-şərqində yerləşir. Arxeoloji, həm də təbiət abidəsidir. Tarixi paleolit dövrünə aiddir. Bu mağara yarımdairəvi şəkildədir, qabaq hissəsi açıqdır, bir az dağılıb. Qarşı tərəfdən hündürlüyü 4 m., sahəsi isə 17x27 metrdir. Əhəng qayalığının altındadır. Təbii çatlardan süzülən su damcılarına görə Damcılı mağarası adlanır. Bu ərazidə kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar ilk dəfə 1953-cü ildə keçirilib və 1956-cı ildən etibarən burada üç il ərzində arxeoloq M.M.Hüseynovun rəhbərliyi ilə əsaslı arxeoloji ekspedisiya təşkil olunub.

Damcılı mağarasının önəmli məqamlarından biri də Damcılı bulağıdır. Bulağın inv. 4511-dir. Mağaranın içərisində yerləşir. Yarımdairəsi, qövsvari şəklindədir, qabaq hissəsi açıqdır. Qarşı tərəfin hündürlüyü 4 m.-dir. Təbiətin yaratdığı bu nadir su damcıları qayaların içindən, suxurların arasından və dağ otlarının yarpaqlarından şehşeh, dənə-dənə mirvari kimi süzülüb ovucda yığılaraq bulaq olur. Tavandan qopub yağış tək yağan şəffaf damlaların səsi sehrli pıçıltıya bənzəyir. Damcılı yeganə bulaqdır ki, suyu daşlardan süzülüb gəlir. İnsanlar su daşı düzəltməyi də elə Damcılıya baxandan sonra öyrəniblər. Bulaq indinin özündə də yerli camaatın və Qazaxa təşrif buyuran qonaqların istirahət yeridir. Dahi Azərbaycan şairi Səməd Vurğunun dediyi kimi: "Damcılı bulağı dünyanın 8-ci, Azərbaycanın isə 1-ci möcüzəsidir".

Qazax rayonunun ikinci dünya əhəmiyyətli abidəsi Baba Dərviş yaşayış məskənidir. Qazax bölgəsi ərazisində yerləşən dünya əhəmiyyətli abidə Baba-Dərviş yaşayış qədim məskənidir. Bu abidə Xanlıqlar kəndi yaxınlığında yerləşir. 1958, 1962-ci və 1966-cı illərdə burada arxeoloji qazıntılar aparılıb, müxtəlif tarixi dövrlərə aid çox maraqlı tapıntılar əldə olunub. Ümumiyyətlə, Baba-Dərviş qədim yaşayış yeri silsilə təşkil edən 5 təpədən ibarətdir. Arxeoloji materiallara əsasən bu məskən hələ eramızdan əvvəl III minilliyin başlanğıcında mövcud olub, burada məskunlaşan insanlar çoxsaylı maddi-mədəniyyət nümunələri yaradıblar. Həmin dövrə aid gildən düzəldilən insan, keçi, öküz və başqa heyvanların fiqurları, təkər modelləri xüsusilə maraqlıdır. Baba-Dərviş ərazisində aparılan qazıntılar zamanı bir neçə yaşayış tikililəri üzə çıxarılıb. Xronoloji baxımından bu tikililər eramızdan əvvəl XII-VII əsrlərə aid olaraq Azərbaycanın Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti abidələri ilə uyğunluq təşkil edir. 1966-cı ildə Baba-Dərvişdə daha bir nadir tapıntı - katakomba tipli qəbir aşkar edilib. Burada cənazə ilə birlikdə gil qablar, ağac cam, dəmir bıçaq, ağacdan olan toxuculuq dəzgahın hissəsi, sümük mil və tunc iynələr tapılıb. Aparılan tədqiqatlar göstərir ki, Baba-Dərviş sakinləri oturaq həyat sürüb və əsasən əkinçiliklə məşğul olublar. Onların təsərrüfatlarında maldarlıq da mühüm rol oynayıb. Xırdabuynuzlu heyvanların maldarlıqda üstünlük təşkil etdiyini göstərir. İribuynuzlu heyvanlar isə əkinçilikdə və nəqliyyatda qoşqu qüvvəsi kimi istifadə olunub. Toxuculuq, duluzçuluq yerli sakinlərin əsas məşğuliyyətindən olub. Baba-Dərviş yaşayış məskənində əldə edilən material nəinki Azərbaycanın və Cənubi Qafqazın, habelə ümumiyyətlə ibtidai tarixinin öyrənilməsi üçün əvəzsiz qaynaqdır.

Qazax rayonunun üçüncü dünya əhəmiyyətli abidəsi Qırmızı körpü abidəsidir. Qırmızı körpü və ya Sınıq körpü, Qazax rayonunda Gürcüstan ilə sərhəddə olan və Ehram çayı üzərindən keçən körpü. Azərbaycanın orta əsrə aid olan nadir memarlıq incilərindən biridir. Xüsusi ad tikintidə istifadə olunub qırmızı daş üçün verilib. "Sınıq körpü" adı isə çay axınının 95 m aşağıda daha qədim körpünün xarabalarından gəlir. Qırmızı körpü XII əsr Azərbaycan memarları tərəfindən salınıb. Körpünün uzunluğu 175 m və 4 aşırımlardan ibarətdir. 26,1 - 8,0 - 16,1 -8,2. Tağtavanlar 22x22x4 sm kərpiclərdən yığılıb. İşlək yolun eni 4,3 m, çıxışlarda isə 12,4 m. ran ərazisində ilkin quruluşunu saxlayan yeganə çoxaşırımlı körpü Qırmızı körpüdür. Əski karvan yolunda Xramçayın üstündən atılan bu möhtəşəm abidə el arasında "Sınıq körpü" adyıla da tanınan və XII yüzilin abidəsi kimi geniş tədqiq edilib. Sahil bölümlərinin içərisində iri karvansaraların olması körpünün karvan marşrutunda böyük əhəmiyyət daşıdığını və onun həm də öz ətrafında mühüm ticarət qovşaqlarından birini təşkil etdiyini göstərir. Ümumiyyətlə, körpü - karvansara birliyi Azərbaycan və qonşu islam ölkələrinin uğurlu tikinti gələnəklərindən biri olub. Bütün göstəricilərinə - məkan quruluşu, tikinti texnikası, bədii memarlıq üslubu və s. görə Qırmızı körpü Azərbaycan memarlığının ən qiymətli abidələrindəndir.

Memarlıq xüsusiyyəti. Qırmızı körpü uzun olsa da (uzunluğu 175 m.-ə yaxın) cəmi dörd aşırımlıdır (aşırımların ölçüsü ardıcıl olaraq 8,2 m; 16,1 m; 8 m; 26,1 m). Belə aşırım azlığının bir səbəbi körpünün sahil bölümlərinin içərisində geniş yerləşgələrin (sol sahildə 166 kv.m. sağ sahildə 116 kv.m.) qurulması, o biri səbəbi isə tağ aşırımlarından ikisinin xeyli böyüklüyüdür. İkinci səbəb görünür, çay yatağının geoloji quruluşu ilə bağlıdır. Belə ki, Azərbaycanın körpütikmə təcrübəsində aşırımların dayağı üçün bir qayda olaraq çay yatağında olan möhkəm qayalıqlar özül kimi seçilirdi. Qırmızı körpünün böyük aşırımı (26,1m.) Azərbaycan inşaat texnikası içərisində ən iri tağ aşırımlarından biridir. Bu da Qazaxdakı bu tarixi memarlıq abidəsini nadir mühəndis qurğuları sırasına salmağa imkan verir. Başdan-başa bişmiş kərpiclə üzənən və buna görə də "Qırmızı körpü" adlandırılan abidə, iri və saya biçimlərlə işlənib. Qazax körpüsü şəhər memarlığına xas incə üslubu olan Gəncə körpulərindən miqyas iriliyi və tutum monumentallığı ilə seçilir. Qırmızı körpünün yüksək mühəndis həlli özünü sivri tağbənd aşırımlarının bişmiş kərpicdən tağparasız qurulmasında, içərisində üç uzununa dəhlizlər sisteminin hesabına onun tağlarüstü kütləsinin yüngülləşdirilməsində, bütövlükdə su səthi üzərində hörgü işlərinin texniki baxımdan çox səmərəli təşkilində və s. göstərir. Sahildə körpünün eni 12,4 m. olduğu halda, keçid hissəsində 4,3 m.-dir.




# "Azəriqaz" vəd verdi

## "Bu qış abonentlər rahat və təhlükəsiz şəkildə qazla təmin olunacaq"

**"Bu qış abonentlər ötən illərlə müqayisədə daha rahat və təhlükəsiz şəkildə təbii qazla təmin olunacaq".**

"Report"un məlumatına görə, bunu Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyev dünən keçirilən "Açıq qapı" aksiyası zamanı bildirib. Onun sözlərinə görə, payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər nəzərə alınsa, bunu təm əminliklə demək olar: "Heç vaxt bu qədər əminlik olmamışdı. Təbii ki, əgər bir ərazidə yaşayış və iş varsa, orada problemlər də olacaq".

E. Vəliyev bildirib ki, bu gün qaz xətlərində kipliyin yoxlanmması ilə bağlı ciddi işlər aparılıb: "Azəriqaz"ın bütün daşıyıcı xətləri yoxlanılıb. Kipliklə bağlı problemlər yaranan boru xətlərində təmir işləri həyata keçirilib. İstismarda olan və müəyyən problemlər yaradan qaz xətlərinin təmiri və dəyişdirilməsi ilə bağlı bu il 60 min paqonmetrə yaxın qaz xəttinin çəkilişini yerinə yetirmişik və kipliklə bağlı ortaya çıxan problemlər tam aradan qaldırılıb".

"Bu isə o deməkdir ki, qazın təzyiqlə verilməsinə baxmayaraq hər hansı sızmaların baş vermə ehtimalı çox azdır. Amma bu o demək deyil ki, qaz sızması olmayacaq. Olacaqsa da, bunun qarşısı dərhal alınacaq", - şöbə rəisi bildirib.

# Əhali diqqətli olmalıdır

## Spirtli içkilər bazarında anarxiya var



**"AQTA-nın müəyyən etdiyi neqativ hallar dəryada damladır. Səbəblərindən biri Qida Təhlükəsizlik Agentliyinin (AQTA) sahə üzrə səmərəli işləməməsidir. Xüsusən də, alkoqollu içkilər bazarında səmərəli iş apara bilmir. Bu sahədə ən yaxşı çalışan, istehlakçı hüquqlarını qoruyan Daxili İşlər Nazirliyi yanında Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsidir".**

Bunu Azad İstehlakçılar Bir*liyinin (AİB) sədri Eyyub Hüseynov "Şərq"ə deyib. O bildirib ki, sözügedən qurum vaxtaşırı yoxlamalar həyata keçirir:* "O cümlədən, keçən həftə də brend barlarda, restoranlarda ən bahalı içkilərin saxta olduğu aşkarlanıb. Düşünürəm ki, bu kimi bir neçə sahə adını çəkdiyimiz quruma verilməlidir. Çünki AQTA-nın əməkdaşları saat 18:00-dan sonra dincəlməyə gedir. Analoji hallar da nəzarətsizlikdən yaranır. İkinci səbəb isə qanunların zəif olmasındadır. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanun 1995-ci ildə qəbul olunub. Həmin ildən bu tərəfə qərarda istehlakçıların zərərinə 7 dəfə dəyişiklik aparılıb. Qanunun dəyişilməsi üçün dəfələrlə parlament, Ombudsman Aparatı qarşısında və bir neçə yerdə məsələ qaldırmışam. Heç kim əhəmiyyət verməyib. Köhnələn qanunu icra edən dövlət orqanı demək olar ki, heç bir iş görmür. AQTA-nın əsasnaməsində qidanın təhlükəsizliyinin təmin olunması qeyd edilib. Keyfiyyət masa üzərində qalıb. Xüsusən spirtli içkilər bazarında böyük problemlər yaşanır. AİB spirtli içki alarkən əhalini diqqətli olmağa çağırır. İlk növbədə, alkolqollu içkilərin üzərində aksiz markası olmalıdır. Daha sonra nəzərə alsınlar ki, Gürcüstandan açıq şəkildə şərab gətirilmir. Şərabların satış şəbəkəsində saxlanma müddəti 6 aydan çox deyil. Konyaklar 3 il, araqlar 1 ildən artıq saxlanıla bilməz. Hansı malın üzərində son yararlılıq müddəti yazılıbsa, ona üstünlük versinlər. Əks halda mallar baykot olunmalı, alınmamalıdır".

**Sücayət**



## "Sirli qadın" tarixə işıq salacaq

Hamilə mumiya 2000 ildən sonra analiz edilib

*(Əvvəli səh: 16-da)*

**Bir çox anatomik hissələr kimi kəllə də unikaldır. Ən mühüm element üz sümüklərinin səthinin çoxsaylı nöqtələrində yumşaq toxumaların qalınlığının yenidən qurulmasıdır. Bunun üçün bizdə dünyanın müxtəlif populyasiyaları üzrə statistik məlumatlar var".**

"Sirli qadın" Misirin cənubundakı Nil çayının sahilində, qədim Fiv şəhərindəki kral məzarlarında tapılıb. Buna görə də o, Theban icmasının elitalarından biri hesab olunur. Gənc qadının mumiyası 1800-cü illərin əvvəllərində kəşf edilib və eramızdan əvvəl 1-ci əsrə, Kleopatranın kraliça olduğu və Thebes şəhərinin mühüm ticarət məntəqəsi olduğu vaxta təsadüf edir.

Mumiya 1826-cı ilin dekabrında Misirdən Varşavaya aparılıb, elə bu vaxt Misir Krallar Vadisində ən mühüm kəşflər edilib. Əvvəlcə keşiş Hor-Jehutinin qalıqlarının olduğu düşünülən mumiya 2016-cı ildə açılıb və qadın cəsədi aşkarlanıb. Əsrarəngiz qadının cəsədini diqqətlə parçaya büküblər və o, axirətdə istifadə edə bilməsi üçün onun yanında zəngin talismanlar dəsti qalıb.

Milani daha sonra əlavə edib: "Mumiyalama, insanın axirət üçün saxlanması üçün göstərilən qayğının ifadəsi idi".

Digər tərəfdən, "Sirli Qadın"ın daxilində döl olduğu ilk mumiyalanmış nümunə hesab edilir və hazırda Varşava Milli Muzeyində nümayiş etdirilir.

Qadının quruluşlu üzünün şəkillərini noyabrın 3-dən etibarən ölkənin cənub-şərqindəki Silezya Muzeyində açılan sərgidə görmək olar.

**Turan**

# "Zərif gülüşlüm"

## Ermənilər Cahangir Cahangirovun musiqisini mənimsəyib



**Görkəmli Azərbaycan bəstəkarı Cahangir Cahangirovun "Zərif gülüşlüm" adlı musiqi əsərinin Arutyun Pambukçyan və Seda Tadevosyan tərəfindən "Qaram dardzats" adı altında ifa edilməsi mənimsənilməsi və yutub platformasında yayılması faktı Əqli Mülkiyyət Agentliyində araşdırılıb.**

Agentlikdən "Şərq"ə bildirilib ki, ifa olunan "Qaram dardzats" adlı musiqi əsəri Azərbaycan bəstəkarı Cahangir Cahangirovun "Zərif gülüşlüm" musiqi əsəri ilə üst-üstə düşür.

Bildirilib ki, "Zərif gülüşlüm" əsəri Cahangir Cahangirovun 1969-cu il 18 dekabr tarixli ərizəsi əsasında Ümumittifaq Müəllif Hüquqları Agentliyinin Azərbaycan şöbəsində (indiki Əqli Mülkiyyət Agentliyində) qeydiyyata alınıb və müvafiq kataloqa daxil edilib.

Musiqi sonralar bir sıra Azərbaycan musiqi nəşrlərinə də daxil edilib (Cahangir Cahangirovun 1971-ci ildə çap olunmuş "Mahnılar (fortepiano ilə oxumaq və xor üçün)"). Bu mahnı, həmçinin Azərbaycanın məşhur ifaçılarından Şövkət Ələkbərova və İslam Rzayev tərəfindən də ifa edilib, yutub kanallarına yüklənib.

Əqli Mülkiyyət Agentliyinin ekspertləri bəstəkar Eldar Mansurov və Faiq Sücəddinovun rəylərinə əsasən müəyyən edilib ki, ifa olunan "Qaram dardzats" adlı mahnı Cahangir Cahangirovun "Zərif gülüşlüm" əsəri ilə eynidir. Bu da o deməkdir ki, Arutyun Pambukçyan və Seda Tadevosyan tərəfindən ifa edilən "Qaram dardzats" musiqi əsəri plagiatdır və məşhur Azərbaycan bəstəkarı Cahangir Cahangirovun "Zərif gülüşlüm" əsərinin adı "Qaram dardzats" adı ilə əvəz olunaraq təhrif edilib. Yutub kanalında yerləşdirilmiş Arutyun Pambukçyan və Seda Tadevosyan tərəfindən musiqi əsəri haqqında verilən məlumatda Cahangir Cahangirovun adı göstərilməməklə onun müəllif kimi şəxsi hüquqları, yutub kanalında kommersiya məqsədilə yerləşdirilməsi nöqteyi-nəzərindən isə əmlak hüquqları pozulub. Yutub kanalında mahnı haqqında verilən məlumatda aranjemançı kimi Khachik Sahakyan göstərilib. Müəllif-hüquq qanunvericiliyi baxımından mahnının aranjeman edilməsi üçün müəllifdən və ya onun vərəsələrindən icazə alınmalıdır.

Bu hal, eyni zamanda, Azərbaycanın milli qanunvericiliyinin müddəaları ilə yanaşı, həm də Azərbaycan və Ermənistanın üzv olduqları Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) inzibati idarəçiliyində olan "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern konvensiyasının, ÜƏMT-nin Müəlliflik Hüququna dair Müqaviləsinin və ÜƏMT-nin İfalar və Fonoqramlara dair Müqaviləsinin müddəalarının ermənilər tərəfindən kobud şəkildə pozulmasıdır.

*Qeyd etmək istəyirik ki, Əqli Mülkiyyət Agentliyi tərəfindən Azərbaycan xalqına məxsus olan müəllif əsərlərinin, folklor nümunələrinin və digər qeyri-maddi mədəni irs nümunələrinin ermənilər tərəfindən oğurlanması, mənimsənilməsi və erməni nümunələri kimi təqdim olunması hallarına qarşı mübarizə aparılır, tarixi əsaslara söykənən və həmin əsərlərin Azərbaycan xalqına məxsus olmasını danılmaz faktlarla sübut edən arayışlar hazırlanaraq beynəlxalq təşkilatlara göndərilir, kütləvi informasiya vasitələrində yayılır, Agentliyin nümayəndələrinin iştirak etdiyi yerli və beynəlxalq tədbirlərdə ətraflı məlumatlar verilir və erməni saxtakarlığı ifşa olunur.*

**Aygün**

## "Fikrət Əmirov - 100" Musiqi Festivalına start verilir




**Mədəniyyət Nazirliyi "Fikrət Əmirov - 100" Musiqi Festivalına start verir.**

Bu barədə "Şərq"-ə Nazirlikdən məlumat verilib.

Qeyd olunub ki, cari ilin noyabrın 12-23-də Bakı və Gəncə şəhərində silsilə konsertlər, tamaşalar və müvafiq tədbirlərin icrası planlaşdırılır. Belə ki, 12 noyabr tarixində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında bəstəkarın "Nizami" baleti, 13 noyabr tarixində teatrın kollektivi Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında bəstəkarın "Sevil" operasını təqdim edəcək. 18 noyabr tarixində eyni məkanda Azərbaycan Dövlət Simfonik Orkestri konsert proqramı ilə çıxış edəcək.Azərbaycan Dövlət Akademik Filarmoniyasında noyabrın 15-i Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, 17-də Fikrət Əmirov adına Əməkdar Kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı konsert proqramı ilə çıxış edəcək. Noyabr ayının 21-də Beynəlxalq Muğam Mərkəzində Vokal musiqisi axşamı təşkil olunacaq. Noyabr ayının 22-də Heydər Əliyev Sarayında bəstəkarın 100 illik yubileyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçiriləcək. Noyabrın 23-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında bəstəkarın "1001 gecə" baleti nümayiş olunacaq.

**Bildiriş**

17 dekabr 2022-ci il tarixdə saat 11:00-da Qax şəhəri M.Mustafayev 34 ünvanında Qax avtonəqliyyat MMC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcək.

Gündəlikdə duran məsələlər:
Cəmiyyətin sədrinin təyin olunması;
Cəmiyyətin gələcək fəaliyyəti;
Digər məsələlər.

# O bir əfsanə!

## Ad günün mübarək, Kemal Sunal!



*(Əvvəli səh: 16-da)*

**"Şərq" türk mediasına istinadən xəbər verir ki, Kamal Sunal 11 noyabr 1944-cü ildə İstanbulda anadan olub. Memar Sinan İbtidai məktəbini və Vəfa liseyini bitirən sənətçi orta məktəbi 11 ildə bitirib. 12 sentyabr 1980-ci ildə Mərmərə Universitetinin jurnalistika fakültəsində təhsilini yarımçıq qoyub.**

Universitet illərində və sonrasında Emayetaş fabrikində çalışan sənətçi teatr və kino dünyasına addım atmazdan əvvəl elektrik ustası şagirdi kimi çalışıb.

Sənətçi müsahibəsində "İqtisadi vəziyyətimiz yaxşı deyildi. Atam Miqrosdan təqaüdçüdür. Yay tətilində ayaqqabı və kitab parasına çalışırdım" sözləri ilə iş həyatına erkən başladığını bildirib.

Hələ orta məktəbdə oxuyarkən teatra maraq göstərməyə başlayan Sunal məktəbdə tamaşalar da təşkil edib, "Zoraki həkim" teatr tamaşasında iştirak edib.

Məşhur teatr aktyoru Müşfik Kenterlə Vefa liseyində fəlsəfə müəllimi Belkıs Balkır vasitəsilə tanış olan sənətçi peşəkar aktyorluq karyerasına Kenterler Teatrında başlayıb və uzun illər orada rol alıb.

Sənətçi bir müddət Ülvi Uraz Teatrında, Ayfer Feray Teatrında və nəhayət, Devekuşu Kabare Teatrında çalışdıqdan sonra burada oynadığı tamaşada məşhur rejissor Ertem Eğilmez tərəfindən bəyənildikdən sonra böyük ekranla qarşılaşıb.

Sunal aktyorluğa başlama hekayəsini danışır: "Bilmirəm necə oldu, özümü əsl səhnədə tamaşaçıların arasında tapdım. "Səs" Teatrında ilk rolum çox qısa oldu. Üç dəqiqə səhnədə qalardım, qalmazdım. Elə bir söz dediyimi də xatırlamıram. Çıxırdım. Nə etdiyimi çox xatırlamıram, amma tamaşaçılar gülürsülər. Bu da mənim xoşuma gəlirdi".



Rejissor Eğilmezin çəkdiyi "Şirin Dillim" filmində basketbolçu obrazını canlandıran sənətçi kinoya ilk addımını 1973-cü ildə atıb və geniş aktyor heyəti ilə filmlərdə rol almağa davam edib.

Özünəməxsus bədən quruluşu və bir çox filmlərdə canlandırdığı personajların yaxınlığı, xüsusilə Rıfat İlgazın "Hababam Sınıfı" filmində canlandırdığı "İnək Şaban" obrazı ilə qısa zamanda Türkiyənin ən sevilən aktyorlarından birinə çevrildi.

"İnək Şaban"ın populyarlaşması ilə bir çox filmlərdə "yaxşı, sadəlövh adam" kimi tanınan sənətçi sonralar "Şaban" obrazını canlandırıb. "Mən şəxsi həyatımda az danışan çox soyuq adamam" sözləri ilə özünü müəyyən edən sənətçi rol aldığı onlarla filmdə milyonları güldürüb. Sunalın 1974-cü ildə Gül Sunalla evliliyindən Əli və Ezo adlı iki övladı dünyaya gəlib.

**Turan**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3222





## O bir əfsanə!

### Ad günün mübarək, Kemal Sunal!

**Film çəkilişlərinə getmək üçün təyyarəyə minərkən infarkt keçirərək 55 yaşında dünyasını dəyişən Kemal Sunaldan sonra Türkiyənin komediya filmi vsahəsində dərin boşluqlar yaranıb.**

"Əslində noyabrın 10-da doğulmuşam. Amma atamın öldüyü gün ad günümü qeyd edə bilmirəm, sevinə bilmirəm, gülə bilmirəm. 11 noyabr doğum günümdür..." deyərək gülən üzü ilə milyonları heyran edən komediya ustası Kemal Sunal 78-ci yaş günündə anılır...

*(Davamı səh: 15-də)*

**Turan**

## 3000 illik öküz heykəli ələ keçirilib




**Türkiyənin Nevşehir şəhərinin Avanos rayonunda keçirilən əməliyyatda yaşı 3000 il olduğu hesab edilən kiçik öküz heykəli ələ keçirilib və 4 şübhəli saxlanılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Jandarma Komandanlığı qrupları, Avanosda bir iş yerində tarixi əsərin olduğunu öyrənib. Əməliyyat keçirən jandarm, yaşı 3000 il olduğu təxmin edilən Het dövrünə aid kiçik öküz heykəlini ələ keçirib.

Əməliyyatda N.B, A.R.O, S.C. və A.U. saxlanılıb.

Jandarmada aparılan əməliyyatların ardından ədliyyəyə sövq edilən şübhəlilər haqqında 2863 saylı "Mədəniyyət və Təbii Sərvətlərin Mühafizəsi haqqında" qanunu pozma cinayəti ilə məhkəmə prosesinə başlanıb.

**Turan**







## "Sirli qadın" tarixə işıq salacaq

### Hamilə mumiya 2000 ildən sonra analiz edilib







**Dünyada tanınan yeganə hamilə Misir mumiyasının üzü alimlər tərəfindən yenidən canlandırılıb. Alimlər "Sirli qadın" kimi tanınan mumiyanın 2000 il əvvəl necə göründüyünü anlamaq üçün DNT nümunələrindən istifadə ediblər.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, qədim Misirin zadəganlarından olan qadın üzərində aparılan araşdırmalar tarixin naməlum səhifəsinə yeni nəfəs gətirəcək.

"Sirli qadın" adlandırılan mumiya ötən il polşalı tədqiqatçılar qrupu tərəfindən analiz edilib və onun qarnında döl aşkar edilib. Tədqiqatçıların sözlərinə görə, qadın təxminən 2000 il əvvəl hamiləliyin 28-ci həftəsində vəfat edib və böyük ehtimalla 20-30 yaşları arasında olub. Mütəxəssislər kəllə sümüyü və digər qalıqlarından istifadə edərək onun eramızdan əvvəl I əsrdə sağ ikən necə göründüyünə dair iki görüntü əldə ediblər. İtaliya məhkəmə antropoloqu və Varşava Mumiya layihəsinin üzvü Chantal Milani deyib: "Sümüklərimiz və xüsusən də kəllə sümüyümüz bir insanın üzü haqqında çox şey açır.

*(Davamı səh: 15-də)*

**Turan**

## Şakira Britaniya moda brendinin siması oldu



**Keçən iyun ayında "Barselona"nın ulduzu Cerard Pike ilə 12 illik münasibətini bitirən Şakira "Burberry" brendinin siması olub.**

**Britaniyanın dəbdəbəli moda brendi üçün kamera qarşısına keçən 45 yaşlı müğənni brendin "The Night Before" adlı kampaniyasında iştirak edib.**

**Kampaniyada poza verən müğənni Milad bayramının ruhunu əks etdirən parlaq görünüşünü, eləcə də marka ilə eyniləşdirilən trençkotlarını nümayiş etdirib. Latın müğənnisi brendin reklam çarxında da rol alıb.**

## Kraliçanın ölümündən sonra ilk dəfə

### Heykəlinin açılışı olub



**Büyük Britaniyan Kralı III Çarlz anası, Kraliça II Elizabetin ölümündən sonra onun ilk heykəlinin açılışını edib. Axşam.az xəbər verir ki, heykəl ölkənin ən böyük qotik kilsəsi olan York Minsterin divarında yerləşir.**

**III Çarlz açılış zamanı bu fikirləri səsləndirib:**

**"Bu heykəl ilk dəfə beş il əvvəl planlaşdırılanda, mərhum Kraliçanın Platin Yubileyini, misli görünməmiş nailiyyətlərə malik hökmranlığını qeyd etmək üçün nəzərdə tutulmuşdu. İndi biz həmin hakimiyyətin sonuna böyük kədərlə şahid olduğumuz üçün heykəlin açılışını onun xatirəsinə ehtiramla edirik".**



## Bir araya gəldilər

### Ginnesin rekordçuları öz bacarıqlarını nümayiş etdiriblər

**"Ginnesin Rekordlar Kitabı" təşkil etdiyi tədbirdə qeyri-adi rekordçularını təqdim edib.**

**"Şərq" xəbər verir ki, dünyanın hər yerində yaşayan rekordçular öz istedadları ilə diqqət çəkiblər.**

Britaniyalı Corc Skoli skeytbord sürərkən ona verilən 500 tapmaca kubunu həll edib.

Çində velosipedçi Zhang Jing Kunsa bir dəqiqə ərzində maneənin üstündən 14 dəfə tullanaraq velosipedlə ən çox tullanan titulunu qazanıb.

ABŞ-ın Florida ştatında yaşayan Dinesh Sunar gözləri bağlı halda cəmi 1 dəqiqə ərzində 21 geriyə dönüş edə bilir.

Dubayda yaşayan Ahmet Alkhudhiri və Abdullah Alhattaşi iki istedadı birləşdirir. Biri istifadə etdiyi ATV-nin qabaq təkərlərini qaldırarkən, digəri ATV-də futbol topunu 70 dəfə tullayır.

Alkhudhiri həmçinin bir əli ilə dirəyə vura və 30 saniyə ərzində ardıcıl 87 dəfə topu sıçrada bilir.

Yaponiyalı Junji Nakasone 56 dəfə sinəsi üzərində üç basketbol topunu yuvarladaraq adamları ovsunlayır.

14 yaşlı Liberti Barros başını bədəninin arxasına qoyaraq 20 metr məsafəni 22 saniyəyə qət edərək rekord qırıb.

Amazi kimi tanınan Mariam Olayivola ayaq üzərində ən çox halqa ilə fırlanma rekordunu qırmağa çalışdı. Hər il Ginnesin Rekordlar Kitabı tərəfindən "Super bacarıqlar" mövzusu ilə təşkil edilən tədbir müxtəlif qitələrdən olan insanları yeni rekordlar vurmağa həvəsləndirir.

**Turan**

## 2 lirənin davası...

### Rus turist tualet operatorunu yumuruqla öldürdü




**Antalyada 60 yaşlı tualet operatoru 2 lirə pul üstündə mübahisə etdiyi rus turistin yumruğu ilə ölüb. Təhlükəsizlik kamerası görüntüləri ilə yaxalanan turist həbs edilib.**

"Şərq" "ntv.com"a istinadən xəbər verir ki, hadisə oktyabrın 25-də Antalyanın Kəmər rayonunda baş verib. Rayondakı avtodayanacaqda tualet işlədən 60 yaşlı Mehmet Özcan ehtiyacларını ödədikdən sonra 2 TL ödəməyən rus turist R.K.-nın yanına gedib və onunla mübahisə edib.

R.K.-nın atdığı yumruqla yerə yıxılan Özcanın başı yerə dəyib. Ətrafdakıların çağırdığı təcili yardımla xəstəxanaya aparılan Özcan müalicəsindən sonra buradan ayrılıb.

Bir müddət sonra işə qayıdan Özcan yenidən xəstələnib. Özcan təcili yardımla əvvəlcə Kəpəz Dövlət Xəstəxanasına, daha sonra isə özəl xəstəxanaya aparılıb.

Burada müalicə alan Özcan beyin qanaması nəticəsində dünyasını dəyişib. Özcanın ölümü ilə bağlı araşdırmaya başlayan polis ətrafdakı təhlükəsizlik kamerası görüntülərini araşdırıb.

60 nəfərin ifadəsini alan polis hadisəni törədən şəxsin Rusiya vətəndaşı R.K olduğunu bildirib. Nəzarətə alınan R.K. ifadəsindən sonra ədliyyədə həbs edilib.

Cəsədi götürmək üçün Çankırıdan gələn qardaşı oğlu Murat Özcan Mehmet Özcanın xərçəng xəstəliyinə tutulduğunu və əlil qızı olduğunu deyib.

15 gündən sonra məhkəmə tibb meyitxanasından götürülən Mehmet Özcanın cəsədi Antalya Böyükşəhər Bələdiyyəsinin Kurşunlu qəbiristanlığında torpağa tapşırılıb.

**Turan**